# 525-ci qəzet

2 oktyabr 2012-ci il, çərşənbə axşamı, №178 (3734). Qiyməti 20 qəpik

www.525.az


## Videogörüntü ilə bağlı cinayət işi xüsusi nəzarətdədir

***BAŞ PROKUROR ZAKİR QARALOV:*** “ABU KLİNİKASINDA QANUNSUZ ORQAN TRANSPLANTASİYALARINDAN ƏLDƏ OLUNAN 100 MİN DOLLAR ELŞAD ABDULLAYEVƏ ÇATDIRILIB”



“Gülər Əhmədova ilə bağlı başlanan cinayət işi birbaşa Prezident İlham Əliyevin nəzarəti altındadır. Bu cinayət işini siyasiləşdirmək olmaz”. APA-nın məlumatına görə, bunu baş prokuror Zakir Qaralov Elşad Abdullayev və Gülər Əhmədovanın videosu ilə bağlı başlanan cinayət işinin istintaqından danışarkən deyib.

Baş prokurorun sözlərinə görə, materiallarla bağlı müxtəlif ekspertizalar təyin olunub: “Dünən (srağagün — red.) əməkdaşlarımız Azərbaycan Beynəlxalq Universitetinin binasında olublar. Həmin videoçəklişin aparıldığı otağa baxış keçirilib. Bütün bu araşdırmalar başa çatandan sonra aydın olacaq ki, həmin videoyazı hansı otaqda və hansı məqsədlə aparılıb”.

Baş prokuror deyib ki, G. Əhmədova özü istintaqın obyektiv aparılması üçün deputat toxunulmazlığı hüququndan imtina edib: “O da hesab edir ki, istintaqa yaxından kömək edəcək”.

Z. Qaralov bildirib ki, Gülər Əhmədova ilə bağlı videomaterial yayan Elşad Abdullayev Azərbaycana gəlməlidir: “İlk növbədə Elşad Abdullayevlə Gülər Əhmədova üzləşdirilməli, cinayət işi bağlı Elşad Abdullayevə müxtəlif suallar ünvanlanmalıdır. Bu suallardan biri budur ki, Elşad Abdullayev hansı səbəbə görə bu görüntüləri 7 il saxlayıb, yalnız Azərbaycanı tərk edəndən ictimaiyyətə açıqlayıb. Əgər o korrupsiyaya qarşı mübarizə aparan şəxsdirsə, deputatlığa namizədliyini verdiyi dövrdə ona qarşı olan əməlləri istintaq orqanına bildirməli idi. Belə bir müraciət isə olmayıb”.

Zakir Qaralov həmçinin bildirib ki, Elşad Abdullayevin bir vaxtlar rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Universitetində ciddi korrupsiya faktları aşkar edilib: “2010-cu ildə insan orqanlarının qanunsuz transplantasiyası ilə bağlı ukraynalı həmkarlarımız tərəfindən qaldırılmış cinayət işinin istintaqı zamanı ABU-nun tabeçiliyində olan klinikada belə faktlar müəyyən edilib. 2009-cu ildə həmin klinikada 10-a yaxın xarici vətəndaşın üzərində böyrək köçürmə əməliyyatı aparılıb. Bu əməliyyatları ukraynalı həkimlər həyata keçiriblər. Biz o zaman Ukrayna tərəfinə lazımı köməklik göstərmişik. Həmin fakt üzrə Baş Prokurorluqda cinayət işi başlanıb. Ukrayna tərəfinin başladığı cinayət işi ilə bağlı artıq məhkəmə istintaqı yekunlaşmaq üzrədir. Orada adı keçən azərbaycanlı vəzifəli şəxslərlə bağlı cinayət işinin materialları ayrılaraq Azərbaycan Baş Prokurorluğuna göndərilib”.

Z. Qaralov deyib ki, adı çəkilən klinikanın rəhbəri Dilarə İsmayılova istintaqa ifadəsində bütün bu qanunsuz əməlləri məhz Elşad Abdullayevin tapşırığı ilə həyata keçirdiyini deyib: “O, həmçinin qeyd edib ki, qanunsuz orqan transplantasiyalarından əldə etdikləri 100 min ABŞ dollarını Elşad Abdullayevin özünə çatdırıb. Bir daha qeyd edirəm ki, Elşad Abdullayev korrupsiyaya qarşı mübarizə aparan şəxsdirsə, gəlib bu suallara cavab verməlidir”.

Baş Prokuror ABU-nun lisenziyasının 2010-cu ildə Təhsil Nazirliyi tərəfindən ləğv edildiyini xatırladıb: “Təəssüflər olsun ki, qanunsuz köçürülmələr nəticəsində orada təhsil alan minlərlə tələbələrimiz diplom ala bilməyiblər. Həmin faktlarla bağlı bizə çoxsaylı şikayət daxil olub. Şikayətlər həm saxta diplomların verilməsi, həm qanunsuz köçürülmələr zamanı külli miqdarda rüşvət almaqla bağlı olub. Daxil olan şikayətlər əsasında ABU-nun vəzifəli şəxslərinin bir qismi məsuliyyətə cəlb olunub. Hazırda istintaq gedir. Bu kimi əməlləri olan bir insan bu gün özünü elə göstərir ki, guya o korrupsiyaya qarşı mübarizə aparır. Elşad Abdullayev bilməlidir ki, hamı qanun qarşısında bərabərdir. Vaxtı çatanda, hər kəs layiq olduğu məsuliyyətə cəlb ediləcək”.

***Ardı 3-cü səh.***

## Ərdoğandan Azərbaycana növbəti dəstək

“DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNƏ YANAŞMADA TÜRKİYƏNİN MÖVQEYİ DƏYİŞİLMƏZDİR”



“Dağlıq Qarabağ məsələsinə yanaşmada Türkiyənin mövqeyi dəyişilməzdir”. APA-nın xəbərinə görə, bunu AKP-nin bugünkü qurultayında bu partiyanın sədri və Türkiyənin baş naziri Rəcəb Tayyip Ərdoğan deyib. Baş nazir əlavə edib ki, Türkiyənin bu mövqeyini Ermənistan və onun dəstəkçiləri də bilməlidir: “Azərbaycanlı qardaşlarımızın haqları bərpa olunmayana qədər bizim mövqeyimiz dəyişməyəcək”.

Qeyd edək ki, AKP-nin bu gün keçirilmiş IV qurultayına dünyanın müxtəlif ölkələrindən 200-ə qədər qonaq qatılıb. Azərbaycandan qurultayda Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

## “AŞPA Ramil Səfərovla bağlı heç bir sənəd qəbul etməyəcək”

***JAN-KLOD MİNYON:*** “ŞƏXSƏN MƏN ERMƏNİSTAN VƏ AZƏRBAYCAN ARASINDAKI MÜNAQİŞƏ İLƏ BAĞLI ARTIQ POLEMİKALARIN YARANMASINA QARŞIYAM”



“AŞPA Ramil Səfərovun məsələsi ilə bağlı heç bir sənəd qəbul etməyəcək”. APA-nın Avropa bürosunun məlumatına görə, bu fikirləri AŞPA sədri Jan-Klod Minyon brifinqdə jurnalistlərin suallarının cavablandırarkən deyib. “Şəxsən mən Ermənistan və Azərbaycan arasındakı münaqişə ilə bağlı artıq polemikaların yaranmasına qarşıyam. Bu məsələlərdə əlavə polemikaların yaradılması nə mənim, nə də Assambleyamızın işi deyil. Ümumilikdə bu münaqişə çox mürəkkəb bir məsələdir və biz də parlament demokratiyası çərçivəsində, eləcə də Avropa Şurası olaraq bu məsələdə yardımçı olmaq üçün əlimizdən gələn hər şeyi etməyə hazırıq. Ramil Səfərov məsələsinə gəlincə, mən bununla bağlı artıq vaxtında bəyanat vermişəm və bu əfv aktını pisləmişəm. Lakin AŞPA sessiyasının dördüncü günü keçiriləcək müzakirələrdə bu məsələ yalnız cari məsələ kimi müzakirə ediləcək. Burada heç bir sənəd belə qəbul edilməyəcək. Nə qətnamə, nə də ki tövsiyə xarakterli hansısa sənədin qəbulundan söhbət gedə bilməz. Mən sadəcə çalışacağam ki, bu müzakirələr layiqli formada keçirilsin”.

Jan-Klod Minyon AŞPA-nın son sessiyası çərçivəsində Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin rəhbərləri ilə görüş keçirdiyini xatırladıb: “Onları sağlam mühitdə əməkdaşlıq etməyə çağırdım və dedim ki, bu məsələ ilə bağlı çalışıb həll yolu tapmalıyıq. Əminəm ki, Avropa Şurası ümumilikdə bu münaqişənin həllində hansısa müsbət rol oynayacaq. Amma yenə də qeyd edirəm ki, biz bu məsələlərdə əlavə polemikalar yaratmaq, alovun üstünə yağ tökmək fikrində deyilik. Biz parlament demokratiyası çərçivəsində bu iki ölkə arasında sağlam mühitin yaradılması istiqamətində yalnız dialoqa üstünlük verməliyik”.

AŞPA sədri qurumun tərkibində Dağlıq Qarabağ münaqişəsinə dair Alt Komitənin bərpa olunmasına qarşı çıxdığını söyləyib: “Hesab edirəm ki, bu məsələdə biz tamamilə ATƏT-in Minsk Qrupuna etibar etməliyik”.

### Əhmədinejad gəlir

İran prezidenti Mahmud Əhmədinejad İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində iştirak etmək üçün Azərbaycana gələcək. APA-nın “Fars” agentliyinə istinadən yaydığı məlumata görə, İƏT dövlət başçılarının sammiti oktyabrın 16-da Bakıda keçiriləcək. Bundan bir gün əvvəl isə İƏT Nazirlər Şurasının XX iclasının keçirilməsi nəzərdə tutulur. Sammitin yekununda Bakı Bəyannaməsi qəbul olunacaq, sənəddə təşkilatın gələcək fəaliyyət istiqamətləri öz əksini tapacaq.

### Afaq Bəşirqızının səhhəti normallaşır

Ötən həftə ürəyindən cərrahiyyə əməliyyatı olunan Azərbaycanın Xalq artisti, Musiqili Komediya Teatrının aktrisası Afaq Bəşirqızının vəziyyəti normallaşmağa doğru gedir. Aktrisanın oğlu Səmral Təhməzovun APA-ya verdiyi məlumata görə, aktrisanın iki həftədən sonra evə buraxılacağı gözlənilir. S. Təhməzov A. Bəşirqızının yanına aktyor yoldaşlarının, eləcə də dövlət rəsmilərinin gəldiyini deyib: “Gündəlik olaraq gəlirlər, maraqlanırlar. Anam rahat danışır, həkimlər müsbət dəyişikliyi hiss edirlər”.

### "İpotekadan yararlanacaq gənclərin siyahısı genişləndirilməlidir"

“Biz bir neçə dəfə vurğulamışıq ki, İpoteka Fonduna ilk öncə daha çox vəsait köçürülməlidir. Sonra isə ipotekadan yararlanacaq gənclərin siyahısı genişləndirilməlidir”. APA-nın xəbərinə görə, bunu gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə açıqlamasında deyib. Nazir bildirib ki, hazırda Azərbaycanda ipoteka kreditləri daha çox elmlə məşğul olan, hərbi qulluqçu gənclərə verilir: “Bu siyahını daha da genişləndirmək lazımdır ki, mümkün qədər çox gənc ailələr bu kreditlərdən yararlana bilsinlər”.

Ali məktəblərdə gənclərin hərbi hazırlığı üzrə dərslərin tədris olunması barədə verilən suala cavabında A. Rəhimov nazirliyə bununla bağlı hər hansı təklif daxil olmadığını deyib: “Təklif daxil olsa, layihə hazırlayıb, müvafiq qurumlara təqdim edə bilərik”.


**ELAN**

Dünyaşöhrətli professor, doktor **Cavad Heyət** Bakıda. Hər gün saat 10.00-dan 13.00-a qədər xəstələrini qəbul edir.

**Ünvan: Nizami küçəsi 149, 2-ci blok, 2-ci mərtəbə, mənzil 2 (həyət qapısından girmək lazımdır).**

**Telefon: (012) 493-98-74, (050) 395-18-54**



# "Təhsildə rasionallaşdırma tədbirlərinə ciddi ehtiyac var"



Bölgələrdə müəllim çatışmazlığı problemini həll etmək üçün mütləq təhsil sistemində rasionallaşdırma tədbirləri aparılmalıdır. Bunu təhsil naziri Misir Mərdanov deyib. Nazirin sözlərinə görə, artıq 10 ilə yaxındır ki, bu məqsədlə xüsusi dövlət proqramı həyata keçirilir. Proqramın həyata keçirilməsi nəticəsində bu problem, demək olar ki, həll edilə bilib: "Ancaq yalnız bu istiqamətdə iş aparmaqla problemi həll etmək olmaz. Hökmən təhsil sistemində rasionallaşdırma tədbirləri aparılmalıdır. Buna ciddi ehtiyac var. Mən bu yaxınlarda Qusar və İsmayıllıda konfransda iştirak etdim. Bəlli oldu ki, həmin rayonlarda, eləcə də digər ucqar rayonlarda 9 şagirdi olan 9 illik orta məktəblər var. Belə məktəblərin sayı çoxdur. Belə şəraitdə əlbəttə ki, müəllim təminatı problemi heç vaxt həll olunmayacaq". M.Mərdanov bu səbəblərlə əlaqədar rasionallaşdırma tədbirlərinin həyata keçirilməsini zəruri sayıb.

**S.QARAYEVA**

# Azərbaycandakı gənclər siyasəti modeli Qırğızıstanda da tətbiq olunacaq

BMT-nin dəstəyi ilə Gənclər və İdman Nazirliyi Azərbaycanda həyata keçirilən gənclər siyasəti modelinin Qırğızıstanda tətbiqi işlərinə başlanıb.

Bunu dünən Bakıda keçirilən "Azərbaycan — Qırğız gənclərinin I Forumu"nun açılış mərasimində çıxış edən gənclər və idman naziri Azad Rəhimov deyib.

Nazir bildirib ki, Azərbaycanda tətbiq olunan gənclər siyasəti modeli Qırğızıstan tərəfinin diqqətinə çatdırılıb və onlarla birgə həmin modelin Qırğızıstanda tətbiq olunması istiqamətində işlər görülür: "Bu əməkdaşlıq bizim üçün çox vacib və şərəflidir. Çünki Azərbaycan ilk dəfə BMT çərçivəsində olan layihəni başqa bir ölkədə icra edir. Bu onun göstəricisidir ki, Azərbaycan yeni bir mərhələ yaşayır və donor ölkə kimi çıxış edir".

A.Rəhimov bildirib ki, son illər ərzində gənclər modelinin tətbiqi ilə bağlı nümayəndə heyəti Azərbaycanda və Qırğızıstanda olub. Bu işdə əsas məqsəd iki ölkənin gənclər təşkilatları arasında əlaqələr yaratmaqdır.

Nazir vurğulayıb ki, forumun proqramına əsasən, iştirakçılara Azərbaycanda gənclər siyasəti sahəsində görülən işlər haqqında ətraflı məlumatların verilməsi, iki ölkə gənclərinin iştirakı ilə müxtəlif mövzularda müzakirələrin aparılması, Bakı şəhərində yerləşən tarixi-mədəni obyektlərlə tanışlıq məqsədi ilə gəzintilərin və Qusar rayonuna səfərin təşkil edilməsi nəzərdə tutulub: "Forum "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qırğız Respublikasının Gənclər, Əmək və Məşğulluq Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Prezident İlham Əliyevin müvafiq fərmanının 2-ci bəndinə uyğun olaraq təşkil edilib. Qırğızıstan gəncləri Azərbaycanın rayonlarına səfər edəcək və mədəniyyətimiz, tarixi abidələrimizlə yaxından tanış olacaqlar. Bu tip əməkdaşlıqlar qarşılıqlı olaraq həyata keçiriləcək. Azərbaycan tarixində ilk dəfədir ki, biz ölkə olaraq BMT tərəfindən irəli sürülən "gənclər modeli" təşəbbüsünü digər ölkələrdə həyata keçiririk. Bu gün isə gənclər siyasəti modelimizi Qırğızıstanda gerçəkləşdiririk. Bununla bağlı, hər iki ölkədə müxtəlif treninq və konfranslar keçirilir. İnanırıq ki, gənclərlə əməkdaşlıq sahəsində görülən işlər əhəmiyyətli olacaq".

Nazir qeyd edib ki, nazirlik 50-yə yaxın ölkə ilə gənclərlə əməkdaşlıq sahəsində müqavilələr imzalayıb və bu cür forumların keçirilməsi gələcəkdə də davam etdiriləcək.

A.Rəhimov əlavə edib ki, hazırda Azərbaycanda ipoteka kreditləri daha çox elmlə məşğul olan, hərbi qulluqçu gənclərə verilir. Nazir qeyd edib ki, bu siyahını daha da genişləndirmək lazımdır ki, mümkün qədər çox gənc ailələr bu kreditlərdən yararlana bilsinlər. Ali məktəblərdə gənclərin hərbi hazırlığı üzrə dərslərin tədris olunması barədə verilən suala cavabında A. Rəhimov nazirliyə bununla bağlı hər hansı təklif daxil olmadığını deyib: "Təklif daxil olsa, layihə hazırlayıb, müvafiq qurumlara təqdim edə bilərik".

**Sevinc QARAYEVA**

# Ağa Laçınlının ailəsi dövlət rəsmilərinə müraciət etdi

Mərhum şair Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsinin zəbt olunması məsələsinə görə Prezident Administrasiyasının rəhbəri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın sədri Ramiz Mehdiyevə və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədova müraciət olunub.

Ağa Laçınlının həyat yoldaşı Mələk Əliyeva Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın sədri kimi Ramiz Mehdiyevə sentyabr ayının 6-da da müraciət etmişdi. Müraciətdə Mələk Əliyeva onlara məxsus olan, Səbail rayonunun Badamdar qəsəbəsində yerləşən torpaq sahəsinin Səbail Rayon İcra Hakimiyyətinin sabiq başçısı Rüstəm Məmmədovun icra başçısı işlədiyi dövrdə anası Biliy Məmmədovanın adına verdiyi sərəncam əsasında zəbt olunduğunu bildirmişdi.

Ramiz Mehdiyevə növbəti müraciətində Mələk Əliyeva qeyd edib ki, ilk müraciətdən sonra Rüstəm Məmmədov və onun ailə üzvləri daha da aktivləşiblər: "Məmmədovlar ailəsi torpağımızın bizə məxsus olmasını təsdiq edən yeganə sənədi qanunsuz yolla dəyişdirmək istəyir. Belə ki, bu il sentyabrın 28-də aşkar etdik ki, Rüstəm Məmmədovun qardaşları Mübariz və Zülfüqar Məmmədovlar bizə məlum olmayan üsulla, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin mütəxəssislərinin vasitəsi ilə, yerində bizə məxsus torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarını yenidən müəyyən etməklə dəyişdirmə işlərini həyata keçirirlər".

Mələk Əliyeva müraciətində bu qanunsuzluğa son qoyulmasını xahiş edib.

Qərib Məmmədova müraciətdə də eyni problem diqqətə çatdırılıb. Bildirilib ki, Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsinin döngə nöqtələrinin yerində dəqiq göstərilməsi üçün ailə sentyabrın 11-də Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədrinə müraciət edib. Sentyabrın 25-də komitənin kadastr şöbəsinin mütəxəssisi Badamdara gələrək torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarını dəqiq göstərib və bəlli olub ki, mərhum şairin ailəsinə məxsus torpaq sahəsinin 8 metr 50 santimetr hissəsi Məmmədovlar ailəsinin çəkdirdiyi daş hasarla zəbt edilib. Bu faktla bağlı bir neçə media nümayəndəsinin iştirakı ilə akt tərtib olunub.

Qərib Məmmədova müraciətdə daha sonra deyilir ki, sentyabrın 28-də Səbail rayonunun sabiq icra başçısının qardaşı Zülfüqar Məmmədov və özünü Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin mütəxəssisi kimi təqdim edən Nizami adlı şəxslə Badamdara, Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsinə gəliblər. Orada vəzifəsini və soyadını şairin ailə üzvlərinə bildirməkdən imtina edən Nizami adlı şəxs söyləyib ki, onu Qərib Məmmədovun köməkçisi Namiq müəllim göndərib və ona tapşırılıb ki, Ağa Laçınlının ailəsinə məxsus torpaq sahəsinin döngə nöqtələri yenidən müəyyən edilməli, komitənin kadastrında dəyişiklik olunmalıdır.

Mərhum şairin ailəsi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədrinə müraciətində vurğulayıb ki, sözügedən torpaq sahəsi vərəsəlik hüququ əsasında onların mülkiyyətinə keçib. Bununla bağlı 2008-ci ildə Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən Çıxarış verilib və artıq torpaq sahəsinin döngə nöqtələri də torpağın plan və ölçüsünə salınaraq müəyyən olunub.

Qərib Məmmədova müraciət bu sualla bitir: "Məgər Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin şəxsin mülkiyyətində olan və reyestr xidməti tərəfindən təsdiqlənmiş torpaq sahəsinin döngə nöqtələrinin sonradan, həmin şəxsin icazəsi olmadan dəyişdirməyə səlahiyyəti varmı?".

**BƏXTİYAR**

## Məzahir Pənahov Gürcüstanda seçkiləri izləyəcək

Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Gürcüstanda səfərdədir. APA-nın Gürcüstan bürosunun məlumatına görə, Məzahir Pənahov Azərbaycandan gələn geniş tərkibli nümayəndə heyətinin Gürcüstanda seçkiləri müşahidə edəcəyini bildirib: "Gürcüstana bu ölkənin Mərkəzi Seçki Komissiyasının dəvəti ilə gəlmişik. Seçkiləri izləmək üçün Azərbaycandan müxtəlif təşkilatların da təmsilçisi kimi gələnlər var. Ümumilikdə ən geniş nümayəndə heyəti Azərbaycandan gəlib. Bu da təbiidir. Çünki Azərbaycanla Gürcüstan arasında əlaqələr getdikcə möhkəmlənir, münasibətlər yüksək səviyyədə qurulur. Biz sabahkı seçkiləri müşahidə edərkən, imkan daxilində azərbaycanlıların kompakt yaşadığı bölgələrdə də olmağa çalışacağıq".

## Bəzi Rusiya avtomobillərinin Azərbaycana idxalına qadağa qoyuldu

Dünəndən etibarən Rusiya istehsalı olan bəzi avtomobillərin Azərbaycana idxalı qadağan edilib. "APA-Economics"in məlumatına görə, bunu Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev bildirib. A.Əliyev qeyd edib ki, hökumətin qərarına uyğun olaraq, oktyabrın 1-dən artıq bəzi avtomobillər ölkəyə buraxılmır: "Söhbət "VAZ-2107" və "VAZ-2115" markalı avtomobillərdən gedir". Komitə sədri bildirib ki, əslində bu qadağa yalnız bu gündən qüvvəyə minsə də, belə maşınlar Azərbaycana artıq bir neçə aydır ki gətirilmir: "Son 3-4 ay ərzində bu maşınların ölkəyə idxalı ümumiyyətlə olmayıb, baxmayaraq ki, qadağa bu gündən qüvvəyə minib. Bu gündən etibarən isə həmin maşınlar ümumiyyətlə ölkəyə buraxılmayacaq". A.Əliyev "Euro-3" yanacaq standartına cavab verməyən və istehsal tarixi 2001-ci ilədək olan avtomobillərin Azərbaycana gətirilməsinə qadağa qoyulması barədə məlumatlara aydınlıq gətirərək belə qərarın olmadığını bildirib: "Hələlik bununla bağlı heç bir yenilik yoxdur, qərar qəbul olunsa onu icra edəcəyik, amma oktyabrın 1-i tarixinə belə qərar yoxdur".

## "Cinayətkarlığın elm kimi öyrənilməsi" kitabı çapdan çıxıb




Azərbaycan Mətbuat Şurasının hüquqşünası, hüquqşünas-publisist Şəmsəddin Əliyevin "Cinayətkarlığın elm kimi öyrənilməsi" kitabı çapdan çıxıb. Müəllifin sayca beşinci, tədris üçün nəzərdə tutulmuş ikinci kitabı olan nəşr mütəşəkkil cinayətkarlığa — korrupsiyaya, insan alverinə, narkomaniyaya və terrorçuluğa qarşı mübarizəyə dəstək məqsədi daşıyır.

Vəsaitdə cinayətkarlığı doğuran səbəb və şəraitə həm ümumi, həm də cinayətlərin konkret növ və cəhətləri baxımından aydınlıq gətirilir, ümumən cinayətkarlığın profilaktikası və xəbərdarlığı problemləri barədə mülahizələrə geniş yer verilir.

"Cinayətkarlığın elm kimi öyrənilməsi" məna və məzmunca müəllifin 2010-cu ildə çapdan çıxmış "Cinayətkarlıqla mübarizə" kitabının davamıdır. Nəşrdən tələbələr, aspirantlar, ali təhsil məktəblərinin müəllimləri və hüquq-mühafizə orqanlarının işçiləri istifadə edə bilərlər.

Qeyd edək ki, Ş.Əliyev eyni zamanda "Polisə dəstək" İctimai Birliyinin sədridir və yeni çapdan çıxmış kitab sözügedən təşkilatın Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə ərsəyə gəlib.

## İsti hava bir neçə gün davam edəcək

Azərbaycan ərazisində hava şəraiti yaxın iki-üç gün ərzində sabit olacaq və yüksək təzyiq altında formalaşacaq. Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Umayra Tağıyeva bildirib. Onun sözlərinə görə, orta troposferdən, Aralıq dənizi rayonlarından nisbətən isti hava cərəyanları Cənubi Qafqaza doğru hərəkətdədir: "Buna görə də, oktyabr ayının normal göstəricilərindən bir qədər yüksək olan temperatur rejimi müşahidə olunmaqdadır. Yaxın iki gün ərzində Bakıda havanın temperaturunun 28-32 dərəcə intervalında dəyişməsi gözlənilir".

U. Tağıyeva bildirib ki, yaxın iki gün ərzində Bakı və Abşeron yarımadasında dəyişkən buludlu, yağmursuz hava şəraiti müşahidə olunacaq: "Güclü külək gözlənilmir, dəyişkən istiqamətli, əsasən mülayim külək əsəcək".

Aran rayonlarında havanın temperaturu 29-34, dağlıq ərazilərdə 22-27 dərəcə təşkil edəcək. Əksər rayonlarda hava yağmursuz keçəcək, gecə və səhər saatlarında bəzi ərazilərdə duman olacağı, ayrı-ayrı dağlıq və dağətəyi rayonlarda qısamüddətli, az yağış yağacağı gözlənilir.

# Allahşükür Paşazadə: "Orta məktəblərdə İslam dininin əsaslarının tədrisinin tərəfdarıyam"



"Orta məktəblərdə İslam dininin əsaslarının tədrisinin tərəfdarıyam". APA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə deyib. A.Paşazadə bildirib ki, İslam dini xalqın tarixidir və Azərbaycan bununla yaşayır: "Arzu edərdim ki, hər bir tələbə və şagird, o cümlədən vətəndaşımız özünün mənəviyyatının haradan gəldiyini bilsin. Beləliklə, kənardan gələn radikal qüvvələr öz təsirini göstərə bilməyəcəklər".

Şeyxülislam qeyd edib ki, ölkədə dini təhsil müəssisələri var və bu istiqamətdə bir sıra işlər də görülür: "Bu müəssisələrin, mədrəsələrin sayının artırılmasına daha da ehtiyac duyulur. Bölgələrdə belə təhsil müəssisələrinin açılması da məqbul hesab edilir".

QMİ sədri din xadimlərinin ictimaiyyətin və cəmiyyətin bir parçası olduğunu da söyləyib: "Buna görə də din xadimlərimiz bəzi məsələləri öyrənməli, bir-biri ilə əməkdaşlıqda olmalı və təcrübə mübadiləsi aparmalıdırlar. Bu gün din xalqın rifahına xidmət etməlidir. Allah da dini insanlara buna görə göndərib".

# "Əhali arasında müşahidə olunan soyuqdəymə və zökəm halları hava dəyişikliyi ilə əlaqədardır"

BU İL AZƏRBAYCANDA 17 NƏFƏRDƏ A QRİPİ AŞKARLANIB

Son günlər əhali arasında müşahidə olunan soyuqdəymə və zökəm halları hava dəyişikliyi ilə əlaqədardır. Bu barədə APA-ya Akademik Vəli Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun qrip laboratoriyasının müdiri Almaz Əsədova deyib. Onun sözlərinə görə, ilin bu fəslində orqanizm nisbətən zəifləyir, immunitet aşağı düşür: "Hazırda müşahidə olunan xəstəlik qrip deyil, zökəmdir. Qrip A, B, C və digər viruslar tərəfindən törədilir. Hər şeyi qriplə bağlamaq olmaz. Burundan selik gəlməsi, başağrısı və qripə oxşar digər əlamətlər soyuqdəymədə də müşahidə olunduğundan əhali bu xəstəlikləri qarışdırır. Onları ayırd etmək də çətindir".

Laboratoriya müdiri əlavə edib ki, bu cür dəyişkən hava şəraiti insanlarda təzyiq əmələ gəlməsinə, ürək-qan-damar sistemi zədələnmələrinin yaranmasına da səbəb ola bilər.

A. Əsədova bildirib ki, bu il qriplə bağlı laboratoriyaya 191 nəfər müraciət edib: "Onlardan 17 nəfərdə A qripi aşkarlanıb. Bu, aşağı göstəricidir. Bu günlərdə qriplə bağlı instituta müraciət daxil olmayıb".

Həkim qripdən qorunmaq üçün əhaliyə tövsiyələr də verib: "İndi meyvə-tərəvəzin, göyərtinin bol vaxtıdır. Onlardan səmərəli istifadə etməklə immuniteti gücləndirmək, vitamin çatışmazlığını aradan qaldırmaq olar. Uşaqları xəstə adamlardan uzaq tutmaq lazımdır. İctimai nəqliyyatdan, metrodan istifadə etdikdə də diqqətli olmaq lazımdır. Viruslara yoluxmamaq üçün insanlar sanitar-gigiyenik qaydalara riayət etməli, imkan daxilində nəqliyyatdakı əl tutanlardan tutmamalıdır".

# Alim-döyüşçü yad edildi



Gədəbəydə Azərbaycanın görkəmli riyaziyyatçı alimi, Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsinin ilk azərbaycanlı dekanı Mikayıl Xıdırzadənin anadan olmasının 100 illiyi qeyd edilib. Yubiley tədbirində rayon ictimaiyyətinin nümayəndələri, Azərbaycan Milli Elmlər Akademiyasının, Respublikada fəaliyyət göstərən universitetlərin alimləri, görkəmli riyaziyyatçının yaxınları iştirak ediblər.

Çıxışlarda həyatı cəmi 32 yaşında qırılsa da riyaziyyat elmimizdə öz izi olan alimin ömür yoluna nəzər salınaraq bildirilib ki, Mikayıl Xıdırzadə 1912-ci ildə Gədəbəyin Miskinli kəndində anadan olub. Kənd məktəbində orta təhsilini başa vurduqdan sonra o, M. Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsinə daxil olub. O, sovet dövründə Moskva Dövlət universitetinə daxil olmuş ilk azərbaycanlı olub. 1937-ci ildə ali təhsilini bitirdikdən sonra Mikayıl Xıdırzadə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsində müəllim, 1938-ci ildən isə dekan kimi çalışıb. Mikayıl müəllim fakultənin ilk azərbaycanlı dekanı olub. Az müddətdə burada xeyli riyaziyyatçı yetişdirə bilib.

1941-ci ildə Böyük Vətən Müharibəsi başlayarkən səfərbərliyə cəlb olunmamaq hüququna malik olmasına baxmayaraq, Mikayıl Xıdırzadə könüllü olaraq ordu sıralarına yazılıb və cəbhəyə yollanıb. Özünü rəşadətli döyüşçü kimi göstərərək topçu bölüyünün komandiri olub və bir neçə orden və medalla təltif olunub. 1944-cü ildə qızğın döyüşlərin birində igidliklə həlak olub.

Yubileydə çıxış edən alimlər Mikayıl Xıdırovun qısa ömür yaşamasına baxmayaraq, Azərbaycanın riyaziyyat elminə öz töhfəsini verib. Belə ki, onun tələbələrindən AMEA-nın müxbir üzvü Qoşqar Əhmədov, professorlar Əli Həşimzadə, Həbib Ağayev, Kərim Kərimov və digərləri ölkəmizin riyaziyyat elminin qabaqcıl simalarından olublar.

Tədbirdə AMEA-nın prezidenti Mahmud Kərimovun təbrik məktubu da səsləndirilib.

Görkəmli riyaziyyatçının yaxınları adından onun nəvəsi və davamçısı, fizika-riyaziyyat elmləri namizədi Raymonda Xıdırzadə çıxış edərək alimin xatirəsinin əziz tutulmasına görə minnətdarlıq hisslərini ifadə edib.

Yerli incəsənət ustalarının çıxışları da tədbirə rövnəq qatıb.

**Zakir MURADOV**

# Azercellilər üçün yığım qaydası dəyişir

ŞƏBƏKƏ DAXİLİ ZƏNGLƏRDƏ NÖMRƏNİN QARŞISINDA PREFİKS YIĞILMALIDIR

Azercell Telekom MMC şəbəkə daxilində yığım qaydalarını dəyişir. Oktyabrın 1-dən etibarən digər Azercell nömrəsinə zəng edən abonentlər nömrənin əvvəlində mütləq 050/051 prefiksini yığmalıdırlar. Yəni, zəng edərkən (050 + 7 rəqəmli nömrə) və ya (051 + 7 rəqəmli nömrə) kimi yığım aparılmalıdır. Həm zəng, həm SMS/ MMS həm də digər xidmətlərdən istifadə edilərkən bu qaydaya əməl olunmalıdır. Azercell 1 ay müddətində abonentlərin yeni qaydaya alışmasına yardım edəcək. Belə ki, oktyabr ayının 1 dən etibarən abonent müvafiq yığım qaydasına riayət etmədən zəng edərsə, onda xəbərdarlıq anonsu səslənəcək, lakin yığılan nömrə ilə bağlantı mümkün olacaq. 1 noyabr 2012-ci il tarixindən etibarən isə müvafiq yığım qaydasına riayət etmədən zəng edilərsə, xəbərdarlıq anonsu səslənəcək, lakin bağlantı artıq yaradılmayacaq. Həmçinin, nömrənin əvvəlində prefiks yığılmadıqda SMS/MMS göndərilməsi və digər xidmətlərin istifadəsi mümkün olmayacaq. Odur ki, bundan sonra telefonun yaddaşında saxladığınız Azercell abunəçilərinin nömrələrinin əvvəlinə müvafiq prefiksi yazmağı da unutmayın.

# Nar Mobile təhsil sərgisinə öz kommunikasiya dəstəyini göstərib

Nar Mobile öz dəstək və tərəfdaşlıq siyasətinə sadiq qalaraq 2 ildən artıqdır ki Xəzər regionunda müxtəlif sahələr üzrə mühüm sərgi və konfransların təşkilatçısı olan "İteca Caspian" şirkətinin kommunikasiya tərəfdaşıdır.

Mobil operator son illər tibb və səhiyyə sahəsində müasir informasiya kommunikasiya texnolgiyalarından istifadə olunduğunu nəzərə alaraq ölkəmizin səhiyyə sahəsinə dəstəkləmək üçün bütün imkanlarda istifadə edir. Belə ki, sonuncu belə dəstək kampaniyasını "İteca Caspian" şirkətinin keçirdiyi 18-ci Azərbaycan Beynəlxalq Səhiyyə Sərgisidir.

Bundan başqa Nar Mobile təhsil sahəsinin inkişafına hüsusi diqqət ayırır və İteca-nın təhsil sahəsində hər il təşkil etdiyi sərgilərdə kommunikasiya tərəfdaşıdır. Bu günlər də olan təhsil sərgisində də Nar Mobile öz dəstəyini göstərib.

# Videogörüntü ilə bağlı cinayət işi xüsusi nəzarətdədir

***BAŞ PROKUROR ZAKİR QARALOV:*** "ABU KLİNİKASINDA QANUNSUZ ORQAN TRANSPLANTASİYALARINDAN ƏLDƏ OLUNAN 100 MİN DOLLAR ELŞAD ABDULLAYEVƏ ÇATDIRILIB"

*(Əvvəli 1-ci səh.)*





Z. Qaralov qeyd edib ki, məlum videoçəkilişlə bağlı heç kimin — Elşad Abdullayevin də, Gülər Əhmədovanın da təqsirsizlik prezumpsiyası pozulmamalıdır: "Bununla bağlı ətraflı, obyektiv istintaq aparılacaq".

Baş prokuror onu da bildirib ki, Elşad Abdullayevin qardaşı, Milli Təhlükəsizlik Nazirliyinin sabiq əməkdaşı Mahir Abdullayevin itkin düşməsi faktı ilə bağlı 1 il 4 ay ərzində onun ailəsi istintaq orqanları ilə heç bir əməkdaşlıq etməyib: "İstintaq dövründə onlar həmişə müxtəlif kriminal ünsürlərlə əlaqə yaradıblar ki, guya qardaşları oğurlanıb, istintaq nə onun qətli, nə də oğurlanmasını sübuta yetirib. Bir daha bildirirəm ki, həmin işin istintaqı bu gün də davam etdirilir. Elşad Abdullayevin bildirdiyinə görə, guya əvvəlki dövrlərdə o qardaşının buraxılması üçün müxtəlif insanlara pullar verib, bütün bunlarla bağlı onda materiallar var. Həmin videoları da o istintaqa təqdim edib, onlar da araşdırılır".

Baş prokuror deyib ki, Mahir Abdullayevin tapılması üçün Baş Prokurorluq, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri lazımı tədbirlər həyata keçirir.

Z.Qaralov jurnalistləri maraqlandıram digər sualları da cavablandırıb. O, son zamanlar ölkədə intihar hallarının artmasına münasibət bildirib. Z. Qaralov qeyd edib ki, respublikada baş verən hər bir intihar hadisəsi xüsusi məlumatların siyahısına düşür: "Hər gün bu hadisələrlə bağlı ölkənin Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin rəhbərliyinə məruzə olunur. Həmçinin hər fakt üzrə Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi qaldırılır və istintaq aparılır. İstintaq zamanı əgər müəyyən edilərsə ki, kimsə özünə qəsd edən şəxsə qarşı qanunsuz hərəkət edib və ya onu intihar etməyə vadar edib, o zaman biz həmin şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxırıq".

Z.Qaralov respublikada baş verən intiharların səbəblərini açıqlamasa da, bu istiqamətdə qabaqlayıcı tədbirlərin görüldüyünü bildirib: "Bu məsələlər baş prokurorun birinci müavini tərəfindən rübdə bir dəfə daima ümumiləşdirilir. İntiharların baş vermə səbəbləri ilə də bağlı biz müvafiq orqanlara məlumatlar veririk".

Z.Qaralov Rafiq Tağının qətlinin üstünün hələlik açılmadığını da vurğulayıb. O bildirib ki, hazırda həmin qətlin açılması istiqamətində zəruri tədbirlər davam etdirilir: "Nəticələr barədə ictimaiyyətə məlumatlar veriləcək".

O həmçinin deyib ki, Sumqayıtda "Məişət malları" ASC-də baş verən yanğına yanğın təhlükəsizliyi qaydalarının ciddi pozulması səbəb olub. Z. Qaralov qeyd edib ki, həmin ərazidə olan çənlərin təmirinə cəlb edilmiş qaynaqçılar bu müəssisənin əməkdaşları deyil, kənardan gəlmiş şəxslər olublar: "Hazırda həmin hadisə ilə bağlı ekspertizalar təyin olunub, nəticələri gözləyirik. Bu ağır nəticələrə səbəb olan hadisə ilə bağlı konkret şəxslər məsuliyyətə cəlb olunacaqlar".

Baş prokuror Binə Ticarət Mərkəzində (BTM) baş verən kütləvi zəhərlənmə faktına da münasibət bildirib. Z. Qaralov məlum faktla bağlı 164 nəfərin dəm qazından zəhərlənmə ilə bağlı müalicə müəssisələrinə müraciət etdiyini bildirib: "Onlara tibbi yardım göstəriləndən sonra hamısı evə buraxılıb. Bu hadisəyə Binə Ticarət Mərkəzində müəyyən müddət elektrik enerjisinin kəsilməsi səbəb olub. "Bakıelektrikşəbəkə" tərəfindən prokurorluğa təqdim olunan rəsmi arayışa əsasən, ticarət mərkəzinin öz sistemində elektrik təchizatında pozulma olub. Mərkəzin 5 və 6-cı korpusunda həmin korpuslara baxan şəxslər tərəfindən generatorlar işə salınıb. Nəticədə dəm qazı zəhərlənməsi baş verib. Ekspertizalar təyin olunub, onlar qarşısında müəyyən suallar qoyulub, suallardan biri də odur ki, niyə həmin ərazidə havalandırma sistemləri lazımi səviyyədə deyil? Ekspertizalar keçiriləndən sonra qəti qərarlar qəbul olunacaq".

# Milli Məclis Avropa Parlamentinə etiraz etdi



Milli Məclisin dünən keçirilən iclasında Azərbaycan ordusunun zabiti Ramil Səfərovun əfvinə beynəlxalq təşkilatların birtərəfli yanaşması müzakirə mövzusu oldu. Milli Məclisin spikeri Oqtay Əsədov bildirdi ki, Avropa Şurasına üzv ölkələrin parlament sədrlərinin toplantısında Ermənistan spikeri Ramil Səfərovla bağlı məsələni qaldırıb və cavabını alıb. Ramil Səfərovla bağlı məsələnin əsassız şişirildiyini, Azərbaycana qarşı istifadə edilməyə çalışıldığını bildirən Oqtay Əsədov deyib ki, zabitimizin ekstradisiyası və əfv edilməsi qanuna uyğun olaraq həyata keçirilib: "Ancaq Ermənistan terrorçuları əfv edir. Ermənistan prezidenti özü Xocalı qətliamında iştirak edib. Mən təklif edirəm ki, gələcəkdə bu kimi məsələlərə cavab vermək üçün Milli Məclisdə komissiya yaradılsın".

Spikerin təklifi bəyənildi. Vitse-spiker Valeh Ələsgərov, millət vəkilləri Rasim Musabəyov, Fərəc Quliyev, Qüdrət Həsənquliyev, Mübariz Qurbanlı, Sədaqət Vəliyeva yaradılan komissiyanın üzvləri olub.

"Avropa Şurası, Avropa Parlamenti Dağlıq Qarabağla bağlı qətnamələr qəbul edib, ancaq bu qətnamələrin yerinə yetirilməsinin arxasınca düşmürlər" — deyə spiker Oqtay Əsədov vurğuladı. Onun sözlərinə görə, Azərbaycan ordusunun zabiti Ramil Səfərovun ekstradisiyası və əfvi ilə bağlı isə təcili müzakirələr təşkil olunub, qərarlar verilib: "Bu da göstərir ki, Ramil Səfərov məsələsindən təkcə ermənilər istifadə etmir".

Müzakirələrdə çıxış edən millət vəkili Fəzail Ağamalı ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə bağlı məsələnin parlamentdə müzakirəyə çıxarılmasını təklif etdi. O bunu ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətində irəliləyişə nail olmaması ilə izah etdi.

"Ramil Səfərovun əfvi məsələsində beynəlxalq təşkilatlar, o cümlədən ATƏT-in Minsk qrupu ikili standartlardan çıxış etdi. Tarix boyu ermənilərin azərbaycanlılara qarşı cinayətlərinə göz yumdu, Azərbaycan zabitinin kifayət qədər cəza çəkdikdən sonra azadlığa buraxılmasını qeyri-obyektiv şəkildə şişirtdilər. Onsuz da Minsk qrupu Dağlıq Qarabağ məsələsində qeyri-obyektiv mövqedən çıxış edir".

Müzakirələrin sonunda parlament Avropa Parlamentinin Ramil Səfərovun işi ilə bağlı qətnaməsini pisləyən bəyanat qəbul etdi. Parlamentdə yaradılmış xüsusi komissiyanın hazırladığı bəyanatda qeyd olunur ki, hüquqi məsələyə siyasi rəng verilməsi təəssüf doğurur, Azərbaycana münasibətdə ikili standartlardan xəbər verir: "Ramil Səfərov hüquqi prosedurlara uyğun olaraq Azərbaycana verilib. Təəssüflə qeyd etmək lazımdır ki, qətnamədə Ramil Səfərovun əfvinin qarşısıalınmaz proseslərə yol açacağı qeyd olunur. Azərbaycan torpaqlarının hələ də işğal altında saxlanması ortadadır. Ermənistan Ramil Səfərov məsələsindən danışıqlar prosesini pozmaq, torpaqlarımızı işğal altında saxlamaq üçün istifadə edir. Azərbaycan Avropa Parlamentini birtərəfli mövqedən çıxış etməməyə çağırır".

**KAMİL HƏMZƏOĞLU**

# Vergidən yayınan sahibkarlar barəsində cinayət işləri məhkəməyə göndərilib

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılmış araşdırma zamanı bir necə fakt üzrə sahibkarların vergidən yayındığı aşkara çıxarılıb.

Vergilər Nazirliyinin Analitik-informasiya şöbəsindən 525.az saytına verilən məlumata görə, 1953-cü il təvəllüdlü, Bakı şəhəri sakini, Biləcəri qəsəbəsi, yeni yaşayış massivi, döngə 12 ünvanda yaşayan, "Vüsal-R" şirkətinin rəhbəri Tağıyev Musa Həsən oğlu Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.6, 53.1, 77.3, 78.1, 103.1, 104.1, 152.1, 177.1.3 və 180,1-ci maddələrin tələblərini pozaraq, vergi orqanına təqdim etdiyi bəyannamələrə bilərəkdən təhrif edilmiş məlumatlar daxil etməklə 37 min 496,73 manat məbləğində vergiləri dövlət büdcəsindən yayındırıb. O, şirkətin qeydiyyatda olduğu 6 saylı Ərazi Vergilər İdarəsinə təqdim etdiyi ƏDV bəyannaməsində vergi tutulan dövriyyənin olmadığını göstərmiş, mənfəət vergisinin bəyannaməsində əldə etdiyi gəlirin məbləğini az göstərməklə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə nəzərdə tutulan (xeyli miqdar təşkil edən vergidən yayınma) cinayət əməli törədib. İş üzrə ittiham aktı Respublika Baş Prokurorluğunda təsdiq olunaraq baxılması üçün məhkəməyə göndərilib.

Digər cinayət əməli 1970-ci il təvəllüdlü, Bakı şəhəri sakini, Nərimanov rayonu, Ağasadıq Gəraybəyli 11/15, mənzil 10 ünvanında yaşayan Nağıyev Musa Asəf oğlu tərəfindən törədilib. O, vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmaq məqsədi ilə "Qlobal N.M.A." (VÖEN 2901516601), "TNT LTD" (VÖEN 2901515531), "Fox Com" (VÖEN 2901515941) və "Pronto LTD" (VÖEN 2901525661) məhdud məsuliyyətli cəmiyyətlərini təsis edərək onlara rəhbərlik edib və bu müəssisələrin mühasibat sənədlərinə gəlirlər və xərclər barədə biləkdən təhrif olunmuş məlumatlar daxil etməklə, 78 min 608,36 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırıb. M.Nağıyev 2 saylı ƏVİ-də qeydiyyata alınıb, təqdim edilən vergi bəyannamələrində təsisçisi və rəhbəri olduğu "Qlobal N.M.A" MMC üzrə 4 min 98,94 manat, "TNT LTD" MMC üzrə 5 min 225,66 manat, "Fox Com" MMC üzrə, 3 min 952,46 manat, "Pronto LTD" MMC üzrə isə 3 min 77,54 manat məbləğində sadələşdirilmiş verginin miqdarını azaldaraq xeyli miqdarda vergidən yayınmaya yol verib. M.Nağıyev "TNT LTD", "Fox Com" və "Pronto LTD" MMC-lər üzrə ƏDV məqsədləri üçün qeydiyyata alınmağa dair ərizə verməyə borclu olduğu halda, bunu etməmiş və müvafiq olaraq büdcəyə ödənilməli 4 min 275,08 manat, 19 min 525,42 manat və 35 min 175,64 manat məbləğində əlavə dəyər vergisini və 3 min 277,62 manat məbləğində hüquqi şəxslərin mənfəət vergisini büdcədən yayındıb, beləliklə də, CM-nin 213.1-ci maddəsi ilə nəzərdə tutulan (xeyli miqdar təşkil edən vergidən yayınma) cinayət əməli törədib.




Cinayət işi üzrə sentyabr ın 25-də ittiham aktı tərtib edilib və baxılması üçün Respublika Baş Prokurorluğuna göndərilib.

# Xocavəndin işğalının 20-ci ildönümü ilə bağlı yürüş-mitinq keçirilib

Xocavənd rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 20-ci ildönümünə etiraz əlaməti olaraq rayonun Nərgiztəpə ərazisinə "Qarabağa doğru" devizi ilə yürüş-mitinq də keçirilib. 2 mindən artıq sakinin iştirakı ilə səhər saatlarında başlayan yürüş Nərgiztəpədə Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısınadək davam edib. Yürüş-mitinqdə şəhid ailələri, müharibə veteranları, məktəblilər, ictimaiyyət nümayəndələri Ermənistanın işğalçılıq siyasətini pisləyən, işğal altındakı torpaqları azad etmək və doğma yurdlara qayıtmaq istəklərindən bəhs edən şüarlar səsləndiriblər. Tədbirdə çıxış edənlər 1990-cı illərin əvvəllərində baş verən hadisələrdən, Ermənistanın ölkəmizə qarşı apardığı qəsbkarlıq müharibəsinin ağır nəticələrindən danışaraq torpaqlarımızın tezliklə işğaldan azad olacağına əminliklərini vurğulayıblar. Sonda yürüş iştirakçılarının beynəlxalq təşkilatlara ünvanlanmış müraciəti qəbul edilib. Müraciətdə deyilir: "Azərbaycan Respublikasının Xocavənd rayonu 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal nəticəsində xalqımızın qədim maddi mədəniyyət nümunələri talan edilərək yandırılıb, yüzlərlə insan erməni terrorunun qurbanı olub, rayonun azərbaycanlı əhalisi məcburi köçkün kimi respublikamızın müxtəlif bölgələrində məskunlaşıb. 1988-1993-ci illərdə monoetnik dövlət yaratmağa nail olan Ermənistan Respublikası Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeridərək nəticədə dinc sakinlər qətlə yetirib, yaşayış məntəqələri dağıdıb, talan edib və yandırıblar. XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırım bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Ermənistanın Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi bu təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşmüş, hazırda Azərbaycan ərazisinin 20 faizindən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Biz, Dağlıq Qarabağdan olan məcburi köçkünlər regionda etnik təmizləmə siyasəti həyata keçirmiş, bütün bəşəriyyət üçün qara ləkə olan Xocalı, Qaradağlı və neçə-neçə qanlı soyqırımları törətmiş Ermənistan Respublikasına və Dağlıq Qarabağdakı cinayətkar rejimə göstərilən bütün siyasi, maddi yardım, mənəvi dəstəkləri qətiyyətlə pisləyir, bunun beynəlxalq hüquq prinsiplərinə tamamilə zidd olduğunu bəyan edirik". Müraciətdə BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi məlum dörd qətnaməyə Ermənistanın əməl etmədiyi nəzərə çatdırılıb. Müraciətdə humanizm ideyalarının daşıyıcısı olan bütün beynəlxalq təşkilatlardan tələb olunur ki, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması üçün təsirli tədbirlər görülsün: "Erməni təcavüzünün qurbanı olan bir milyondan çox insanın haqq səsi eşidilsin və pozulmuş hüquqlarımızın bərpa olunması üçün ermənilərin cinayətkar əməlləri beynəlxalq səviyyədə qınaq obyektinə çevrilsin.

Biz, Xocavənd rayonundan olan məcburi köçkünlər birmənalı surətdə bəyan edirik ki, nəyin bahasına olursa-olsun öz doğma yurdlarımıza qayıdacağıq! Bu bizim haqqımızdır və bu haqqı heç kimə və heç nəyə güzəştə getmək fikrimiz yoxdur! Biz sadəcə öz evimizə getmək istəyirik!".

Xocavənd rayonu 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilib.İşğal nəticəsində xalqımızın qədim maddi-mədəniyyət nümunələri talan edilərək yandırılıb, yüzlərlə xocavəndli qətlə yetirilib, rayonun azərbaycanlı əhalisi öz dədə-baba torpaqlarından didərgin düşüb.

1993-cü ilin sonları — 1994-cü ilin əvvəllərində Xocavənd rayonunun düşməndən azad edilməsi uğrunda qanlı döyüşlər gedib və rayonun bir hissəsi işğaldan azad edilib. Şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə düşməndən azad edilmiş Nərgiztəpə ərazisində abidə kompleksi ucaldılıb.

**S.MÜRVƏTQIZI**

# Çexiyalı qubernator BSU-da



Dünyanın bir çox ölkələrinin nüfuzlu ali təhsil ocaqları ilə sıx əlaqə saxlayan Bakı Slavyan Universiteti öz əhatə dairəsini getdikcə genişləndirir.

1 oktyabr tarixində Çexiya Respublikasının Olomouts diyarının qetmanı (qubernatoru) cənab Martin Tesarjik, Çexiyanın Ostrav Universitetinin Fəlsəfə fakültəsinin dekanı, İqtisadi və Sosial Elmlər Mərkəzinin müdiri professor Aleş Zarjiçki, həmin fakültənin beynəlxalq əlaqələr və inkişaf üzrə dekan müavini doktor Marek Ottisk və Slavistika kafedrasının Rusistika bölməsinin əməkdaşı doktor Vitezslav Vilimek BSU-nun qonağı oldular. Qonaqları Çexiya Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Radek Matula və onun xanımı İ. Matula müşayiət edirdilər.

BSU-nun rektoru, AMEA-nın müxbir üzvü professor Kamal Abdullayevlə görüşən çexiyalı qonaqlar qəbula görə rektora dərin təşəkkürlərini bildirdilər. Professor K.Abdullayev qonaqları səmimi salamladıqdan sonra BSU-nun yaranma tarixi, universitetin fakültələri, strukturu, onun zəngin elmi və tələbə həyatı, çoxşaxəli fəaliyyəti haqqında ətraflı məlumat verdi, BSU-nun Azərbaycan elmi və mədəni mühitində xüsusi çəkiyə malik olduğunu vurğuladı. Görüş zamanı BSU və Çexiya Respublikasının universitetləri ilə əlaqələrin perspektivindən, BSU-da "Çexiyaşünaslıq" ixtisası üzrə təhsil alan tələbələrin Çexiya universitetlərində təhsillərini davam etdirməsi imkanlarından söz açıldı. Rektor qeyd etdi ki, universitetimiz tərəfindən xaricdə aparılan işlərin əsas hədəfi isə Azərbaycan dili və mədəniyyətinin, ümumilikdə azərbaycanşünaslığın təbliğidir. Bu istiqamətdə atılmış uğurlu addımları sadalayan rektor Çexiya universitetlərində də bu sahədə işlərin görülməsi vacibliyini vurğuladı. Olomouts diyarının qetmanı (qubernatoru) cənab M.Tesarjik BSU-da Çex Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyət göstərməsindən məmnunluğunu bildirdi və qeyd etdi ki, bu mərkəzin daha da inkişaf etməsi üçün əlindən gələni etməyə hazırdır. Çexiya Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri R.Matula isə rektor K.Abdullayevə BSU-da çex dili və mədəniyyətinə göstərilən diqqət və qayğıya görə dərin təşəkkürünü bildirdi.

Çexiyalı qonaqlar BSU-da fəaliyyət göstərən Rusiya, Ukrayna, Polşa, Yunanıstan, Türkiyə, Bolqarıstan və Belarusiyanın tədris-mədəniyyət mərkəzləri, müasir standartlarla yenidən qurulmuş kitabxana, zəngin texniki avadanlıqla təhciz edilmiş linqafon zalları, elmi-tədqiqat laboratoriyaları ilə tanış oldular.

Sonra qonaqlar Çex Dili və Mədəniyyəti Mərkəzində oldular. Professor K.Abdullayev qonaqları çexiyaşünas tələbələrə təqdim edərək bildirdi ki, "bu otaq Çexiyanın bir guşəsidir və bizim tələbələr burada çex dilini, ədəbiyyatını, tarixini və mədəniyyətini böyük məhəbbətlə öyrənirlər". Rektor bir daha tələbələrin görüşünə gəldiyinə görə qonaqlara təşəkkür etdi.

Olomouts diyarının qetmanı cənab Martin Tesarjik BSU ilə tanışlıqdan şad olduğunu bildirdi və qeyd etdi ki, nəinki mərkəzin inkişafına yardım edəcək eyni zamanda mərkəzdə çex dili tədrisinin təkmilləşdirilməsi üçün əlindən gələni əsirgəməyəcək. Tələbə-müəllim mübadiləsinin vacibliyini vurğulayan qubernator gələcəkdə bu sahədə mühüm addımlar atılacağını bildirdi.

Sonra Çex Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyətini əks etdirən videofilm nümayiş olundu. Videofilmdə Mərkəzin yarandığı gündən etibarən keçirdiyi maraqlı görüşlər əks olunmuşdu. Tələbələrin çoxsaylı suallarını cavablandıran qonaqlar sonda tələbələrlə xatirə şəkli çəkdirdilər və qubernator Martin Tesarjik universitetin fəxri qonaqlar kitabına öz ürək sözlərini yazdı.

Qeyd etmək lazımdır ki, Çexiyanın Ostrav Universitetinin professorları 5 oktyabr tarixinədək BSU-nun qonağı olacaqlar. Bu müddət ərzində professorlar BSU-nun Tərcümə və Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültələrinin tələbələrinə mühazirələr oxuyacaq, Bakı şəhərinin zəngin tarixi abidələri ilə, o cümlədən Şirvanşahlar sarayı və Qala Muzey Kompleksi ilə tanış olacaqlar.

**Günay Əliyeva**

# Deputatlar konqresmenin Cənubi Azərbaycan layihəsinə münasibət bildirdilər

Milli Məclis dünən keçirilən iclasında ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Deyn Rorabaherin Cənubi Azərbaycanla bağlı hazırladığı layihəyə münasibət bildirib.

Bu layihədə qeyd olunur Cənubi Azərbaycanla bağlı hazırladığı layihə ki, Azərbaycan torpağı 1828-ci ildə Rusiya və İranın imzaladığı Türkmənçay müqaviləsi ilə, azərbaycanlıların razılığı olmadan ikiyə bölünüb, Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququ var.

Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov bu sənədə etiraz edib: "İranla Azərbaycanın dostluq münasibətləri var. Kimin nə problemi varsa, getsin öz problemini həll etsin". O, bəzi tərəfləri Azərbaycana və azərbaycanlılara problem yaratmaqda, İranla Azərbaycanın arasını vurmaqda ittiham edib: "İran Azərbaycanın, Azərbaycan da İranın ərazi bütövlüyünü tanıyır. O layihənin Ağ Evə göndərilməsi, Konqresdə müzakirəyə çıxarılması Azərbaycana qarşı səmimiyyətdən irəli gəlmir. Yaxşı olardı ki, həmin konqresmen məsələ qaldıraydı ki ay ABŞ, ay prezident, ay Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həllində, Azərbaycanın 20 faiz torpaqlarını işğal etdiyin görə Ermənistana təzyiq edin. Azərbaycanın heç bir dövlətin torpağında gözü yoxdur".

Yeni Azərbaycan Partiyasının icraçı katibinin müavini, millət vəkili Siyavuş Novruzov da onunla həmfikir olub. Onun fikrincə, bəziləri bu cür sənədləri gündəmə gətirməklə Azərbaycanla İranın münasibətlərini pozmaq istəyirlər.

Son vaxtlar Cənubi Azərbaycan məsələsinin Avropa strukturları və ABŞ tərəfindən qabardıldığını deyən S.Novruzov bunu təsadüfi saymadığını bildirib: "İranda azərbaycanlıların məktəbi olmayanda, hüquqları pozulanda niyə buna toxunmurdunuz? İndi sadəcə, Azərbaycanla İranın münasibətlərini pozmaq istəyirlər. Onlar Cənubi və Şimali Azərbaycanın birləşməsinə heç vaxt imkan verməzlər. Xarici kəşfiyyat orqanlarının təsirinə düşmək olmaz".

**KAMİL HƏMZƏOĞLU**

# Nizami poeziyasının işığında

## GƏNCƏDƏ NİZAMİ GƏNCƏVİNİN 870 İLLİK YUBİLEYİ BÖYÜK TƏNTƏNƏ İLƏ QEYD OLUNDU



Sentyabrın 29-da dahi Azərbaycan şairi və mütəfəkkiri, dünya poeziyasının günəşi Nizami Gəncəvinin vətəni Gəncədə böyük izdiham yaşanırdı. Bütün işıqlı ömrünü Gəncədə keçirməklə dünya poeziya xəzinəsinə əvəzsiz incilər bəxş edən dahi şairin 870 illik yubileyi böyük təntənə ilə qeyd edilirdi.

Ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarətlə başlayan yubiley tədbirləri dahi şairin məqbərəsi önündə davam etdirildi. Burada tədbir iştirakçıları milli geyimli qızlar tərəfindən şərbətlə qarşılandılar. Müxtəlif dillərdə dahi şairin əsərlərindən parçalar söyləyən məktəblilər qonaqları qədim Azərbaycan rəqsləri ilə salamladılar. Sonra Nizami Gəncəvinin sözlərinə bəstələnmiş romansların müşaiyəti ilə minlərlə şəhər sakini, o cümlədən 40 ölkədən dəvət olunmuş 150-dən artıq alimin iştirakı ilə yubiley tədbirləri davam etdirildi.

Tədbiri giriş sözü ilə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev açaraq qonaqları salamladıı, Prezident İlham Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncamın əhəmiyyətindən danışdı və Azərbaycanın mədəni irsinə göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına gəncəlilər adından minnətdarlığını bildirdi.

Sonra Baş nazirin müavini, Xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək bu böyük bayram münasibətilə bütün gəncəliləri, eləcə də dahi Nizami yaradıcılığının işığına toplaşan qonaqları təbrik edərək keçirilən yubiley tədbirlərini yalnız poeziya, mədəniyyət bayramı deyil, eyni zamanda ümumxalq bayramı adlandırdı.

Mərasim başa çatdıqdan sonra qonaqlar və yubiley iştirakçıları dahi söz ustadının qəbrini ziyarət edərək məzara qızıl güllər qoydu, ruhuna dualar oxudular. Sonra məqbərə ətrafında Gəncə Dövlət Dram və Kukla Teatrları aktyorlarının hazırladıqları şairin "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə" və "7 gözəl" əsərlərinin motivləri əsasında ədəbi-bədii kompozisiyalar nümayiş etdirildi, Gəncə Dövlət Filarmoniyası və dövlət kamera orkestrinin birləşmiş xorunun, eləcə də müğənnilərin ifasında Nizaminin sözlərinə bəstələnmiş romanslar səsləndirildi.

Həmin gün Gəncənin mərkəzində Nizami Gəncəvi adına piyada keçidinin açılışı oldu, Azərbaycan Dövlət Aqrar Universitetində Nizami Gəncəvi irsinin təbliğində xidmətlərinə görə yubiley tədbirlərinin iştirakçısı olan bir qrup xarici elm xadiminə Azərbaycan Dövlət Aqrar və Gəncə Dövlət Universitetlərinin "Fəxri doktoru" adının verilməsi mərasimi keçirildi. Mərasimdə aqrar universitetin rektoru, professor Mirdamət Sadıqov və Gəncə Dövlət Universitetinin rektoru, professor Elman Məmmədov çıxış edərək rəhbərlik etdikləri universitetlərin



elmi şuralarının qərarını oxudu və dünyanın ən qədim və zəngin İsgəndəriyyə (Misir) kitabxanasının direktoru, Misir Elmlər Akademiyasının prezidenti, doktor İsmayıl Serageldiyə və BMT-nin Hökumət Komissiyasının sədri, İsveçrə Konfederasiyası Prezidentinin müşaviri, YUNESKO-nun Kommunikasiya üzrə hökumətlərarası panelinin sədri, səfir Valter Fusta Azərbaycan Dövlər Aqrar Universitetinin, Latviyanın 6-cı prezidenti, BMT-nin Baş Katibinin xüsusi təmsilçisi Vaira Vike-Freibergaya və Qırğızıstanın sabiq xarici işlər naziri və müvəqqəti hökumətin rəhbəri Roza Otunbayevaya Gəncə Dövlət Universitetlərinin "Fəxri doktoru" adı verilməsi barədə universitetin diplomları təqdim edildi.

Təhsil naziri Misir Mərdanov "Fəxri doktor" adına layiq görülmüş qonaqları təbrik etdi, bunu əlamətdar hadisə adlandırdı.

Universitetdə keçirilən təntənəli mərasimdən sonra Xan bağında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təməlqoyma mərasimi keçirildi. Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, baş nazirin müavini, Xalq yazıçısı Elçin Əfəndiyev, Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayev və Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək təməli yenicə qoyulan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə uğurlar arzuladılar.

Təməqoyma mərasimindən sonra Heydər Əliyev mərkəzində Nizami Gəncəvinin poemalarının yeni tərcümə və tərtibatda nəşr olunmuş nüsxələrinin təqdimatı keçirildi. Mərasimdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev dahi şairin yubileyi münasibətilə Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ilk dəfə olaraq "Xəmsə"yə daxil olan 5 əsərin külliyat şəklində çap edilməsindən danışdı və buna görə ölkənin birinci xanımına minnətdarlığını bildirdi. Sonra Samir Pişnamazzadənin "Nizami Gəncəvi məqbərəsinin tarixi və talehi"və "Nizami Gəncəvi yaradıcılığında əxilik ideologiyasının təsiri", professor Xəlil Yusiflinin " Nizami Gəncəvi: sələflər və xələflər", Gəncə Elm Mərkəzinin "Nizami Gəncəvinin səcərəsi", professor Mübariz Yusifovun "Nizamidə Azərbaycançılıq", professor Sevda Qurbanəliyevanın "Nizami Gəncəvinin musiqi dünyası" və " Nizami Gəncəvi obrazları miniatürlərdə", eləcə də Avstriya və Böyük Britaniyanın milli kitabxanalarında gətirilmiş Nizami əlyazmalarının, həmçinin Saltikov Şedrin adına Rusiya milli kitabxanasında qorunan "Xəmsə" əlyazmalarının, Almaniyada yaşayan nizamişünas alim, soydaşımız Sevil Fuksun Almaniyanın Milli Kitabxanasında qorunan Nizami əlyazmalarının nəfis şəkildə çap edilməsini əlamətdar hadisə adlandırdı. Çıxış edən müəlliflər və şəhər ziyalıları görülən bu işləri yüksək dəyərləndirərək bildirdilər ki, bu günə kimi qeyd olunan




yubileylər sırasında ilk dəfə olaraq Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən "Xəmsə" külliyat halında nəşr edilib ki, bütün bunlar da Nizami yurdu Gəncənin elm və mədəniyyət mərkəzinə çevrilməsi deməkdir.

Sentyabrın 30-da yubiley tədbirləri davam etdirildi. Şəhər ictimaiyyəti nümayəndələrinin və qonaqların iştirakı ilə keçirilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Himayədarlar Şurasının təsis yığıncağından sonra Gəncə Şəhər İcra Hakimiyyətində dahi şairin 870 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans öz işinə başladı.

Konfransı giriş sözü ilə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev açaraq dünyanın nadir şəxsiyyətlərindən olan Nizami Gəncəvinin bəşər tarixinə verdiyi əvəzsiz incilərdən danışdı, onun yaratdığı əsərlərin bundan sonra da aktual olacağını diqqətə çatdırdı. Bildirdi ki, Nizami Gəncəvinin yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, əxlaqi ideyalar parlaq şəkildə öz əksini tapıb.

Sonra baş nazirin müavini, Xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək yubiley münasibətilə bütün Azərbaycan xalqını təbrik etdi və dedi ki, Nizami yaradıcılığı tədqiqatçılar üçün böyük yaradıcılıq mənbəyidir.Əsrlər, qərinələr bir-birini əvəz etsə də Nizami irsi hələ də tədqiqat mövzusu olaraq qalacaq. Onun yaradıcılığı ilə təkcə Şərq tədqiqatçıları deyil, eyni zamanda Avropa şərqşünasları da məşğul olublar. Bu da onu göstərir ki, Nizami yaradıcılığı Şərqlə Qərbin fəlsəfi, bədii-estetik sintezi, vəhdətidir.

Konfransda Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və təhsil naziri Misir Mərdanov məruzə ilə çıxış edərək dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi ilə bağlı ölkə başçısı tərəfindən imzalanmış sərəncamı milli-mədəni irsimizin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi sahəsində dəyərli töhfə olduğunu qeyd etdilər və dedilər ki, dahi şairin əsərləri dünya ədəbiyyat xəzinəsinin ən qiymətli incilərindəndir. Bu əsərlər bəşəriyyətin yetişdirdiyi böyük dühaların yaratdığı ölməz abidələr arasında özünə ən layiqli yer tutur. Nizami Gəncəvi müstəsna şəxsiyyətdir ki, xalqımızın soy kökünə xas olan ən yaxşı xüsusiyyətlər-istedad, ağıl, vicdan, şərəf, bəsirət və uzaqgörənlik kimi xüsusiyyətləri özündə birləşdirir.

Sonra Misirin İsgəndəriyyə kitabxanasının direktoru, Misir Elmlər Akademiyasının prezidenti İsmayıl Seragəldin, Latviyanın eks prezidenti xanım Vaira Vike-Freiberg, Qırğızıstanın eks prezidenti, professor Roza Otunbayeva, Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumət Təşkilatının sədri Valter Füst, Türkiyənin sabiq mədəniyyət naziri Namik Zeybək, İngiltərə Kraliyyət Akademiyasının rəhbəri, Oksford Universiteti Linkoln Kollecinin professoru Baronessa Susan Greenfield və başqaları çıxış edərək Şərq xalqlarının ədəbiyyatına son dərəcə yüksək humanist ideyalar və yeni sənətkarlıq nailiyyətləri gətirən dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığını təhlil etdilər, xalq yaradıcılığından istifadə etməklə möhtəşəm əsərlər yaratdığını diqqətə çatdırdılar.

YUNESKO-nun dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi ilə əlaqədar müraciəti və Türkiyə Respublikasının 9-cu prezidenti Süleyman Dəmirəlin təbrik məktubu oxunduqdan sonra konfrans öz işinə yekun vurdu.

Sonra Gəncə Şəhər İcra Hakimiyyəti ilə Misirin İsgəndəriyyə, Türkiyə, Gürcüstan və Kəşmir Milli Kitabxanaları arasında əməkdaşlıq haqqında niyyət protokolu və Gəncə şəhəri ilə Tacikistan Respublikasının Xocənd şəhəri arasında "Qardaşlaşmış şəhərlər" sazişi imzalandı.

**S.YUNİSOĞLU**



**Vüqar Tofiqli**

**"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri**

## Sənədsiz mənzillərin hüququ status problemi

"Bələdiyyələrin fəaliyyətinin təbliği " İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə "Sənədsiz mənzillər, onların hüquqi statusu və sosial-məişət xidməti hüquqları ilə bağlı televiziya verilişləri və teledebatların təşkili" mövzusunda layihənin icrasına start verib. İkiaylıq layihənin əsas məqsədi vətəndaşların televiziya verilişləri və teledebatların keçirilməsi vasitəsi ilə maarifləndirilmək, habelə sənədsiz mənzillərə hüquqi status verilməsi yolların müəyyən edilməsi və əhalinin mülkiyyət hüquqlarının qorunması, qanunsuz mənzillərin tikintisinə maraq göstərən vətəndaşlara bu addımın gələcəkdə onlar üçün yaradacağı problemlər barədə izahat işlərinin aparılması və maarifləndirilməsidir.

Qeyd edək ki, cənab Prezident İlham Əliyevin müvafiq göstəriş və sərəncamlarından sonra prosesin həlli istiqamətində bir sıra addımlar atılmağa başlamışdır. "Bələdiyyələrin fəaliyyətinin təbliği " İctimai Birliyi də bu prosesə vətəndaş cəmiyyəti olaraq layihəni uğurla həyata keçirməklə öz töhvəsini vermək arzusundadır.

Qeyd edilməlidir ki, daşınmaz əmlak milli sərvətin əsas hissəsini təşkil edir. Bu əmlakın hüquqi müstəvidə qeydiyyata alınması və idarə olunması ölkəmizdə keçirilən sosial-iqtisadi islahatların nəticəsinə də müsbət təsir edən amillərdən sayılır. Təsadüfi deyildir ki, dövlət tərəfindən vətəndaşların mülkiyyətinə olan hüquqlarının qorunması Azərbaycan Respublikasının Konstitusiyası və digər normativ-hüquqi sənədlərlə tənzimlənir. Lakin etiraf edilməlidir ki, bir sıra inkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də qanunlardakı bəzi boşluqların mövcudluğu, habelə bir çox hallarda qanunların işləməməsi, bəzi yerlərdə məmur özbaşınalığı qanunsuz yaşayış evlərinin inşasına şərait yaradır. Bu da ki sonralar, əmlaka və mənzilə olan hüquqi statusla baglı böyük mübahisələrə səbəb olur.

Odur ki, 2011-ci il mart ayının 6-da ölkə prezdenti, cənab İlham Əliyevin bu istiqamətdə Bakı Şəhər İcra Hakimiyyətində keçirdiyi müşavirədə müvafiq orqanlara sənədsiz evlərlə bağlı verdiyi tapşırıq və tövsiyələr prosesin həllində dönüş nöqtəsi hesab olunur. Bu günlərdə bu problemin həlli ilə bağlı dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə komissiyanın yaradılması problemin həllinin sürətləndirilməsinə yönəlik bir addım kimi də qəbul edilməlidir.

"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin (BFTİB) apardığı araşdırmalar göstərir ki, Bakı və Bakı ətrafı ərazilərdə hüquqi sənədi olmayan 450-500 minə yaxın mənzil mövcuddur. Təxmini hesablamalara görə, bu rəqəmin 28-30%-i müvafiq kommunikasiya xəttlərinin üzərində və ya yaxınlığında yerləşdiyindən sənədləşdirilməsi qeyri-mümkündür. Ancaq mənzillərin 70%-dək hissəsini sənədləşdirmək mümkündür.

Müşahidələr göstərir ki, son illər qanunsuz tikinti bazarında artım səviyyəsi aşağı düşsədə, yenə də müvafiq yerli icra strukturlarının qeyri-rəsmi icazəsi nəticəsində sənədsiz evlərin tikintisi gözə dəyir.

Nəticə də, bir tərəfdən vətəndaşın qanunsuz yollarla zəbt etdiyi torpaq sahəsində mənzilin özəlləşdirməsi sual altına düşür. İkinci bir tərəfdən hüquqi statusu olmadığından bələdiyyə nə əmlak, nədə ki torpaq vergisinin tətbiq edə bilmədiyindən külli miqdarda vəsaitdən mərhum olur. Üçüncü bir tərəfdən mənzillərin alqı-satqısı və ya addan-ada keçirilməsi, habelə özgəninkiləşdirilməsi zamanı kompensasiyaların verilməsi mümkün olmur. Bundan əlavə, bu qrup mənzillərdə yaşayan vətəndaşlara sosial xidmətlərin göstərilməsində müəyyən problemlərin mövcudluğu gələcəkdə vətəndaş-xidmət sahələri ilə qarşıdurmaların yaranmasına şərait yaradır.

BFTİB-nin araşdırmaları göstərir ki, bütün bunlar əhalinin öz hüquqlarını və qüvvədə olan qanunları bilməməsindən, habelə bəzi hallarda yerli məmurların bu prosesə "göz yumması"ndan da irəli gəlir. Bu baxımdan vətəndaşların mülkiyyət hüquqları ilə bağlı əhali arasında mütəmadi olaraq istər vətəndaş cəmiyyəti qurumları, istərsədə bələdiyyə orqanları tərəfindən maarifləndirmə-izahat işlərinin aparılmasına ehtiyac duyulur.

Yuxarıda qaldırılan problemin "vətəndaş-məmur-bələdiyyə" kontekstində müzakirəsi ümumən problemin həllinə yardımçı ola bilər. Sənədsiz, hüquqi statusu olmayan mənzillərin rəsmiləşdirilməsində şəffaflığın təmin edilməsi, o cümlədən prosesin sadələşdirilməsi ilə bağlı təkliflərin hazırlanması üçün layihə çərçivəsində Suraxanı rayonu ərazisində formalaşan bələdiyyələrdə dəyirmi masaların keçirilməsi də nəzərdə tutulub.

Vətəndaş cəmiyyətinin təmsilçisi olaraq inanırıq ki, əhali arasında maarifləndirmə- izahat işlərini aparmaqla bu sahədə aparılan dövlət siyasətinə uğurla həyata keçməsinə yardımçı olacağıq.

## CAR-dakı yarmarkada bu ölkədəki səfirliyimiz təmsil olunub

Azərbaycanın Cənubi Afrika Respublikasındakı (CAR) səfirliyi Yohannesburq şəhərində CAR-ın Türk İş Adamları Birliyi tərəfindən təşkil olunmuş yarmarkada ölkəmizi təmsil edib. Səfirlikdən qəzetimizə verilən məlumata görə, hər il təşkil edilən ənənəvi yarmarkada CAR-da fəaliyyət göstərən türkiyəli iş adamları, təhsil ocaqlarının tələbələri tərəfindən görülmüş işlər təqdim olunur və ümumilikdə Türkiyə mədəniyyəti təbliğ edilir.

Bu il ilk dəfə olaraq yarmarkada səfirliyimiz tərəfindən Azərbaycan guşəsi yaradılıb. Azərbaycan guşəsində ölkəmizin tarixinə və müasir dövrünə aid fotoşəkillər, xalçalar, kitablar, milli şirniyyatlar təqdim edilib, mədəniyyətimizi əks etdirən digər əşyalar da nümayiş olunub.

Ziyarətçilərə ölkəmiz barədə məlumat kitabçaları və bu il Pretoriya şəhərində təsis edilmiş "CAR-da Azərbaycanın dostları" təşkilatının bukletləri, milli suvenirlər və şirniyyatlarımız paylanılıb. Qeyd edək ki, bu yarmarka Yohannesburqda keçirilən ən iri kütləvi tədbirlərdən biridir. Onu gün ərzində on mindən artıq insan ziyarət edir.

**S.MÜRVƏTQIZI**

## Azərbaycanın Almaniyadakı səfirliyində görüş olub

Berlin şəhərinin Zelendorf-Steqlits Bələdiyyəsi Xalq Məktəbinin (Volkshochschule) 12 nəfərdən ibarət nümayəndə heyəti ilə Azərbaycanın Almaniyadakı səfirliyində görüş keçirilib. Görüş Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin (AAKM) təşəbbüsü ilə təşkil olunub. Mərkəzdən qəzetimizə daxil olan məlumata görə, görüşdə səfirliyin müşaviri Rizvan Nəbiyev qonaqlara Azərbaycanın müasir dövrdə xarici siyasətdə, iqtisadi inkişafda, eləcə də sosial və mədəni sahələrdə əldə etdiyi uğurlar barədə məlumat verib. O, həmçinin bu il diplomatik münasibətlərin yaranmasının 20 illiyini qeyd edən Azərbaycan və Almaniya arasında siyasi, iqtisadi və mədəniyyət sahələrindəki münasibətlər barədə danışıb. R.Nəbiyev çıxışında Dağlıq Qarabağ münaqişəsi mövzusuna xüsusi yer ayıraraq Ermənistanın təcavüzkar siyasəti barədə ətraflı məlumat verib və sualları cavablandırıb.

AAKM-in icraçı direktoru Samira Patzer-İsmailova Azərbaycan mədəniyyəti və bu sahədə əldə edilən nailiyyətlər haqqında məlumat verib. Qonaqlar adından Berlin şəhərinin Zelendorf-Steqlits Bələdiyyəsi Xalq Ali Məktəbinin şöbə müdiri Unqruhe çıxış edərək Almaniya ictimaiyyətində Azərbaycana marağın artdığını söyləyib: "Cari ilin oktyabrından bu məktəbdə Azərbaycan dilinin tədrisinə başlanılması da deyilənlərə sübutdur".

Çıxış və müzakirələrdən sonra qonaqlara müasir Azərbaycanın bugünkü həyatını əks etdirən sənədli film nümayiş etdirilib. İştirakçılara Azərbaycan haqqında broşürlər hədiyyə edilib.

**S.MÜRVƏTQIZI**

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi İsveçdə görüşlər keçirib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) sədrinin başçılıq etdiyi nümayəndə heyəti İsveçdə səfərdə olub.

Komitənin mətbuat xidmətindən "525"ə verlən məlumata görə, səfərin ilk günü Stokholm şəhərində "Qadınlar siyasətdə" mövzusunda dəyirmi masa keçirilib. AQUPDK-nın sədri geniş məzmunlu məruzə ilə çıxış edib. Komitə sədri respublikada hər üç istiqamətdə görülən işlərdən, ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi üçün atılan addımlardan danışıb. H.Hüseynova Azərbaycan Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ailə, qadın və uşaq məsələlərinə xüsusi diqqəti nəticəsində ölkəmizdə bu istiqamətdə böyük irəliləyiş əldə edildiyini və gələcəkdə bu fəaliyyətin daha da genişləndiriləcəyini qeyd edib. Səfər çərçivəsində "East Capital İnternational AB" təşkilatında görüş keçirilib.

Görüşdə H.Hüseynova gender bərabərliyinin təmin edilməsi istiqamətində əsas maneələrdən sayılan qadınlara qarşı zorakılığın bütün dünya dövlətlərini narahat etdiyini bildirib. Son zamanlar dünya ictimaiyyəti tərəfindən bu problemə diqqətin artdığını qeyd edən komitə sədri Azərbaycanda da bu istiqamətdə qanunvericilik sahəsində önəmli addımlar atıldığını vurğulayıb. Səfərin üçüncü günü, İsveç parlamentində görüş təşkil olunub. Parlament spikerinin birinci müavini xanım Susanne Eberstein ilə görüşdə H.Hüseynova respublikamızda sosial sahədə əldə olunan nailiyyətləri xüsusilə qeyd edib. Prioritet mövzular ətrafında fikir mübadiləsi görüşün əsasını təşkil edib. Daha sonra Stokholm Şəhər İcra Hakimiyyətində keçirilmiş görüşdə hər iki ölkədə qadınların vəziyyəti, gender bərabərliyi kimi məsələlər müzakirə olunub. Konfransda "Qadın liderliyi" , "Gender bərabərliyi", "Qadınlar sərmayəçi kimi" mövzularında plenar iclaslar keçirilib. Qeyd olunan mövzuların müzakirəsi zamanı Azərbaycan və İsveç qadınlarının əldə etdikləri nailiyyətlərlə yanaşı, həmin sahələr üzrə mövcud perspektivlər müzakirə edilib.

**S.MÜRVƏTQIZI**

# "Azərbaycan hakimiyyəti Elşad Abdullayevin açıqlayacağı heç bir videodan qorxmur"

"VİDEOGÖRÜNTÜ ARAŞDIRILANDAN SONRA QANUNUN TƏLƏBLƏRİNƏ UYĞUN MÜVAFİQ ADDIMLAR ATILACAQ"

**Azərbaycan Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun APA-ya müsahibəsi**

***— Gülər Əhmədova və Elşad Abdullayev arasında görüşün videosu və onun cəmiyyətdə yaratdığı rezonansa münasibətinizi bilmək istərdik.***

— Əlbəttə, bunun rezonans doğurmağı təbiidir. Biz belə də gözləyirdik. Nəzərə alınsa ki, tərəflərdən biri keçmişdə universitet təsisçisi, rektoru, digər tərəf isə millət vəkili, hakim partiyanın üzvü olub. Bu, gözlənildiyi kimi rezonans doğurdu, Azərbaycan cəmiyyətində müəyyən müzakirələrə yer açdı. Ancaq təəssüf doğurucu hal odur ki, hansı mahiyyət kəsb etməsindən asılı olmayaraq, Azərbaycanın bəzi müxalifət dairələri, belə halları axtaran insanlar ondan hakimiyyətə, Prezident İlham Əliyevin komandasına qarşı istifadə etməyə çalışırlar. Dəridən-qabıqdan çıxaraq bunu etmək istəyirlər, bütün imkanlarını, intellektlərini, ətraflarını, ixtiyarlarında olan KİV-ləri, beynəlxalq və daxili əlaqələrini işə salaraq bundan hakimiyyətə qarşı istifadə etməyə cəhd edirlər. Bu, antidövlət, antimillət mahiyyəti kəsb etsə də, bundan hakimiyyətə qarşı istifadə etmək istəyirlər. İki-üç gündür, biz bunu mətbuatdan müşahidə edirik. Hakimiyyət üçün bu məsələ prinsipcə adi, gündəlik hadisələrdən biridir. Çünki bütün dövrlərdə, bütün hakimiyyətlərdə Elşad Abdullayev kimi müxtəlif əyri yollarla sərvət toplamaq istəyən və bəzən buna nəsib olan insanlar olub. Belə əyri yollarla topladıqları sərvəti kimlərinsə vasitəsi ilə özünə mənsəb qazanmaq, hansısa hakimiyyət strukturunda təmsil olunmaq istəyiblər. Bunların puluna sahib çıxıb, ona şərik olmaq, o puldan müəyyən qədər ələ keçirmək istəyən insanlar da olub. Bu insanlar da zaman-zaman ifşa edilib, cəzalarını alıblar. Azərbaycan cəmiyyətində keçmişdə də belə hallar olub, bu gün də var, gələcəkdə də olacaq. Kim hesab edirsə ki, Azərbaycanda 9 milyon yarım əhalinin bütün hərəkətinə İlham Əliyevin komandası cavabdehdir, bu səhvdir. Hakimiyyət bu hadisədən qətiyyən sarsılmayıb. Keçmişdə də biz Elşad Abdullayev kimi insanların mənsəb qazanmasına imkan verməmişik, bu gün də vermirik, gələcəkdə də verməyəcəyik. Amma belə cəhdlərin qarşısını da almaq indiyədək heç bir hakimiyyətə nəsib olmayıb. Əsas məsələ odur ki, hakimiyyət buna qarşı ciddi mübarizə aparır. Belə bir əzm bizdə var. Cəmiyyətdə bu məsələyə olan münasibəti də, cəmiyyətin ayrı-ayrı institutlarında doğurduğu rezonansı da biz yaxşı anlayırıq.

***— Bu hadisədən sonra müxalifət düşərgəsindən parlamentin qeyri-legitim olduğu və buraxılması, yenidən seçkilərin keçirilməsinə dair bəyanatlar səsləndirilir...***



— Azərbaycan cəmiyyətində parlamentin qeyri-legitimliyini sübut edən heç bir fakt yoxdur. O cümlədən nə müxalifətdə, nə də bu işi tədqiq edən daxili və xarici ekspertlərdə... Elə Elşad Abdullayevin videosunun özü də onu göstərir ki, onun kimi qeyri-qanuni yollarla parlamentə can atan insanlar öz məqsədlərinə nail olmayıblar. Onlar kiminlə danışıq aparıblar, bunun bugünkü parlamentə heç bir dəxli yoxdur. Onlarla Gülər Əhmədova kimi, ondan da yüksək ranqlı, hakimiyyətə daha yaxın olan insan tapa, işə qoşa bilərdilər. Amma bu faktın özünün baş tutmaması onun göstəricisidir ki, bu parlamentə Elşad Abdullayev kimi təsadüfü, əyri yollarla can atan adamlar düşməyib, düşə də bilməz.

***— Elşad Abdullayev Azərbaycanın hüquq-mühafizə orqanlarını adam oğurluğu ilə bağlı etdiyi müraciətlərə baxmamaqda ittiham edir. Bu məsələyə münasibətinizi öyrənmək istərdik.***

— Elşad Abdullayevin hüquq-mühafizə orqanları ittiham etməyə heç bir əsası yoxdur. Onun necə insan olduğunu, cəmiyyətdə hansı imic qazandığını hamı yaxşı bilir. Əlbəttə, deyə bilərlər ki, necə oldu, belə bir insan Azərbaycanda universitet açdı, tələbələr yığdı, ən həssas bir sahədə müəssisə sahibi oldu. Təəssüflər olsun ki, belələri ayrı-ayrı zamanlarda müəyyən əməllərini həyata keçirə bilirlər. Amma hakimiyyət onun xarakterini, məqsədini bilən kimi universitetini bağladı. Bu gün müxalifət gecə-gündüz bağırır ki, Elşad Abdullayev hakimiyyəti ifşa elədi. Bəs Elşad Abdullayevin özünü kim ifşa elədi? Məgər o müxalifətçilərin özlərinin uşaqları, yaxınları həmin universitetdə təhsil almırdı? Orada dərs demirdi? Elşad Abdullayevdən bəhrələnməyə çalışmırdılarmı? Hakimiyyət onun Azərbaycan təhsilinə daxil olmaqla güddüyü məqsədi bilən kimi dərhal o universiteti bağladı. Elşad Abdullayev əlində çamadanlarla, əyri yollarla əldə elədiyi pullarla qapı-qapı gəzməyə başladı ki, universitetin fəaliyyətini bərpa eləsin. Buna nail ola bilmədi. Bunu Elşad Abdullayevin özü sübut elədi. İndi o, hakimiyyəti təhdid edir ki, onda başqa video var, açıqlayacaq. Azərbaycan hakimiyyəti Elşad Abdullayevin açıqlayacağı heç bir videodan qorxmur. Hakimiyyət Elşad Abdullayevin əməllərinə heç vaxt şərik olmayıb, gələcəkdə də olmayacaq. Onun hansısa yollarla qazandığı pullara şərik olmaq istəyən, qeyri-qanuni yolla ona vasitəçilik etmək istəyən insanlarla bağlı faktı varsa, buyursun, açıqlasın. O adamlar mütləq şəkildə cəzalandırılacaqlar. Azərbaycan hakimiyyətində belə insanlar təmsil olunsalar da, onlar zamanında müəyyən edilib və cəzalarını alıblar. Keçmişdə də biz belə insanları cəzalandırmışıq, bu gün də prezidentimizin iradəsi ondan ibarətdir ki bu cür insanlar cəzalarını almalıdırlar. Gələcəkdə də belə olacaq. Bizim belə hallarla barışmaq niyyətimiz yoxdur.

***— Gülər Əhmədovanın bundan sonrakı siyasi taleyi necə olacaq?***

— Hər halda video prokurorluq tərəfindən araşdırılır. Videonun gerçəkliyinə də cəmiyyətdə heç kimdə şübhə yoxdur. Yəni belə bir çəkiliş olub. Bu çəkilişin nə dərəcədə montaj olub-olmadığı araşdırılandan sonra Azərbaycan qanunlarının tələblərinə uyğun müvafiq addımlar atılacaq. Heç kimə güzəşt yoxdur. Biz nə iqtidar partiyasının üzvünə, nə də hansısa şəxslə yaxınlığına, qohumluğuna, hansısa şəkildə bağlılığına görə kiməsə münasibət bildirmirik. Azərbaycan hakimiyyətinin təməlini ümummilli liderimiz qanunlara söykənərək qoyub. Azərbaycanda qanunçuluq hər bir insan üçün onun davranış normalarının əsasında dayanır. Qanunu pozan hər bir insan cəzasını almalı, qanunu pozmayana isə cəza verilməməlidir. O anlamda düşünürəm ki, bu yoxlamanın axırını gözləməliyik. O ki, qaldı Gülər Əhmədovanın YAP-da gələcək təmsilçiliyinə, partiya ilə münasibətlərinə, bu haqda partiyanın müvafiq orqanları açıqlamalar verib. Mən onu da demək istəyirəm ki, müxalifət belə hallardan hakimiyyətə qarşı istifadə etmək fikrinə düşməsin. Düşsələr də, bunun heç bir əsası yoxdur. Azərbaycan hakimiyyəti bütün dövrlərdə şəffaf idarəçilik həyata keçirib. Bu gün hansısa insanın əməllərinə görə hakimiyyəti ittiham etmək, günahlandırmaq məntiqsizdir. Heç bir cəmiyyət, o cümlədən Azərbaycan cəmiyyəti hansısa yollarla pul toplamaq, pul toplamağa nail olub, onu müxtəlif yollarla hakimiyyətə istiqamətləndirib nə isə qazanmaq istəyən insanlardan sığortalanmayıb. Amma belələrinin əməllərinin qarşısının alınması o deməkdir ki, hakimiyyət beləlləri ilə eyni mövqeni bölüşmür, onlar cəzalarını alacaqlar.

# Elmar Məmmədyarov BMT Baş Məclisində çıxış edib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 67-ci sessiyasında çıxış edib. Nazir çıxışında Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsindən sonra Baş Məclisinin sessiyasında onun ilk çıxışı olduğunu vurğulayaraq seçkilərin 17 raundunun gedişində ölkəmizə dəstək göstərdiklərinə və onunla həmrəy olduqlarına görə təşkilatın üzvü olan dövlətlərə dərin minnətdarlığını bildirib: "Cari müzakirələrin mövzusu dünyada beynəlxalq münaqişələrin və vəziyyətin nizama salınması olub. Bu mövzu əvvəlki kimi yenə də aktualdır, Baş Məclisin 66-cı sessiyasında keçirilmiş müzakirələrin məntiqi davamıdır. Doğrudan da münaqişələrin nizama salınması beynəlxalq hüququn mühüm və əsas prinsiplərindən biridir. Bir-birinin ərazi bütövlüyünü və siyasi müstəqilliyini tanımaq, beynəlxalq münaqişələrdə hədə-qorxudan və ya zor tətbiqindən çəkinmək, münaqişələri beynəlxalq hüquq əsasında həll etmək çox vacibdir".

65-ci və 66-cı sessiyalarda Baş Məclis mübahisələrin sülh yolu ilə nizama salınmasında, münaqişələrin qarşısının alınmasında vasitəçilik rolunu gücləndirən iki qətnamə qəbul edib. Baş katib təqdim etdiyi məruzədə səmərəli vasitəçilik barədə rəhbər sənədi şərh edib. Ölkəmizin XİN rəhbəri bildirib ki, həlledici amil budur ki, qəbul olunmuş qətnamələr və səmərəli vasitəçilik barədə baş katibin rəhbər sənədi BMT nizamnaməsinin və beynəlxalq hüququn həlledici rolunu təsdiq edir, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyi prinsiplərini dəstəkləyir: "Elə hallar da var ki, ərazi istilalarına nail olmaq üçün dövlətlərin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zor işlədilir. Bütün dünyada yüz minlərlə adam təcavüzdən, işğaldan, etnik təmizləmələrdən və beynəlxalq birliyin narahatlığına səbəb olan ən ciddi cinayətlərə görə cəzasızlıqdan əziyyət çəkməkdədir. Ermənistanla Azərbaycan arasında davam edən münaqişə regionda və dünyada təhlükəsizlik üçün ciddi təhlükədir. Münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilib, bir milyondan çox adam qaçqın və məcburi köçkün olub. Müharibə nəticəsində minlərlə azərbaycanlı, o cümlədən qocalar, qadınlar və uşaqlar həlak olub, zərər çəkiblər".

Nazir çıxışında Ermənistanın Azərbaycana qarşı təcavüzünün sosial-iqtisadi sahəyə də mənfi təsirindən söz açıb: "İşğal olunmuş ərazilərdə Azərbaycanın zədələnməmiş, yaxud dağıdılmamış mədəniyyət və ya memarlıq abidəsi qalmayıb. Lakin biz inanırıq ki, regionda sülhün, sabitliyin və qarşılıqlı faydalı əməkdaşlığın alternativi yoxdur. İşğaldan və yüz minlərlə vətəndaşının qovulmasından zərər çəkmiş bir ölkə kimi Azərbaycan münaqişənin ən tez bir zamanda dinc yolla nizama salınmasına hamıdan çox maraq göstərir. Onun məqsədi qanunsuz erməni işğalına son qoymaq, məcburi köçkünlərin geri qaytarılmasını təmin etmək, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının dinc yanaşı yaşamasına təminat verməkdir".

**S.MÜRVƏTQIZI**

# "Dağlıq Qarabağ üzrə sülh danışıqları prosesinin dəyərləndirilməsi" İtaliyada müzakirə olunub

Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə beynəlxalq əlaqələr sahəsində İtaliyanın aparıcı tədqiqat qurumu olan Beynəlxalq Münasibətlər İnstitutu (BMİ) "Dağlıq Qarabağ üzrə sülh danışıqları prosesinin dəyərləndirilməsi" mövzusunda dəyirmi masa keçirib.

Səfirlikdən "525"ə verilən məlumata görə, tədbirdə BMİ-nin direktor müavini Natali Toççi, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) direktor müavini Gülşən Paşayeva və Avropa Tərəfdaşlıq Fondunun nümayəndəsi Mikael Hovanisyan məruzələr ilə çıxış edib.

Dəyirmi masada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun həlli istiqamətində aparılan danışıqların tarixi, Minsk prosesinin bugünkü vəziyyətinə dair məlumat auditoriyanın diqqətinə çatdırılıb. Sonra dinləyicilərin çoxsaylı sualları cavablandırılıb, mövzu ilə əlaqədar geniş müzakirələr aparılıb. Tədbirdə İtaliyanın elmi, dövlət və işgüzar dairələrinin, KİV-lərin və Romada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak edib. Dəyirmi masa BMİ və SAM arasında həyata keçirilən əməkdaşlıq layihəsi çərçivəsində təşkil olunub.

**S.MÜRVƏTQIZI**

# "BMT-nin gənclər modeli" Forumunda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamə qəbul edilib

Kiyevdə keçirilən "BMT-nin gənclər modeli" IV Beynəlxalq Forumunda xarici gənclər təşkilatlarının nümayəndələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair qətnamə qəbul ediblər. Ukrayna parlamentinin binasında keçirilən forumda 40 ölkədən gənclərin 200-ə yaxın nümayəndəsi, həmçinin bir sıra ölkələrin diplomatik nümayəndəliklərinin təmsilçiləri və siyasi ekspertlər iştirak ediblər. Bir sıra ölkələrin gənclərinin Dağlıq Qarabağ probleminin yaranma səbəblərinə obyektiv yanaşması forumun yekun sənədinin qəbul edilməsi ilə nəticələnib. Uzun sürən müzakirələrdən sonra 26 ölkənin gəncləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnaməni dəstəkləyərək yekun sənədi qəbul ediblər. Qətnamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həlli və bir milyona yaxın qaçqın və məcburi köçkünün doğma yurd-yuvasına qayıtması qətiyyətlə tələb olunur.

**S.MÜRVƏTQIZI**

*Yaddaşımın küncündən*

# Vaqif Səmədoğlu redaksiyaya gəlmişdi...



*Şakir YAQUBOV*

Bundan öncə "mediaforum.az"da gedən yazımda belə bir ifadə vardı: "...Sənəd kimi yox, tarix üçün". Bu, ümumiyyətlə, 40 illik jurnalistlik fəaliyyətimdə istisnasız olaraq rəhbər tutduğum bir neçə prinsipdən biridir. Fikirləşirəm ki, onsuz da rəsmi dövlət idarələrindən tutmuş həvəskar və peşəkar cızmaqaraçılara qədər — hamı fakta məsuliyyətsiz münasibətləri üzündən gələcək üçün, tarix üçün problem ardınca problem yaratmaqdadır: adətən, sol əl sağ əlin nə yazdığından xəbərsiz olur. Belədə kimin imkanı, ağlı-düşüncəsi, abır-həyası, etiraf qabiliyyəti varsa, çap versiyasında yol verilmiş qələtləri heç bir utanc hissi keçirmədən etiraf etməli, həm də bunu elə çap formasında eləməlidir ki, TARİX ÜÇÜN bir tutalqa qalmış olsun...

Boynuma alıram: mən həddən artıq yaddaşıma güvənirəm və nadir hallarda olsa da bunun əzabını çəkirəm.

"Həqiqətən də: bu, bir daha təkrar olunmamalıdır!.." adlı xatirə-qeydlərimdə hərbi senzorun qəzetdə (konkret halda "Kommunist"də) çapına icazə vermədiyi 1990-cı il 20 yanvar hadisələrini araşdıran deputat-istintaq komissiyasının rəsmi yekun rəyinin elə həmin senzor tərəfindən qayçılanmış variantda sonralar qəzetdə dərc edildiyini əminliklə yazmışdım. İki-üç gün əvvəl tamam ayrı faktla bağlı yaddaşımı təzələmək üçün Milli Kitabxanaya getdim, 1990-cı ilin tikilmiş qəzet bağlamalarına ("podşivka"lara) göz gəzdirəndə deputat-istintaq komissiyasının rəyi ilə bağlı iddiamda haqsız olduğum üzə çıxdı: demə, həmin rəy nə ayrıca olaraq Azərbaycanda çıxan qəzetlərdə, nə də SSRİ Ali Sovetinin materialı kimi Moskva qəzetlərində dərc edilməyibmiş. Səbəbi həmin sənədin mahiyyətindədir: sovet hakimiyyəti gələcəkdə üzünə, ən azı, tarix tərəfindən vurula biləcək şapalaq misallı rəsmi materialın geniş kütlə üçün dərc olunmasına icazə verə bilməzdi.

Bəs onda hərbi senzor çapına icazə verməyəndə rəyin ottiskləri cəhənnəmə, materialın orijinalı necə olmuşdur? Güman edirəm ki, bu suala dəqiq cavabı həmin anda senzor generalla "söz güləşdirən" rəhmətlik Rəfail Nağıyev verə bilərdi. Mən isə yalnız güman edə bilərəm. O da bundan ibarətdir ki, bəzən senzor (ümumi formada belə deyirəm) yazının orijinalını da müsadirə edirdi ki, əldə, necə deyərlər, əşyayi-dəlil qalmasın.

Bəlkə deputat-istintaq komissiyasının rəyi də belə bir aqibətlə üzləşmişdir. Hər halda çapına icazə verilməyən iki materialdan biri — Eldar Namazovun məqaləsinin əsli bir neçə il sonra da məndə idi, deputat-istintaq komissiyasının rəyi isə yox...

1990-cı ilin həmin günlərinə bir də qayıtmaq istəyirəm.

Fevralın 5-də Sov.İKP MK-nın üç gün davam edən plenumu açılır. Gündəlikdə bir məsələ durur: "Partiyanın XXVIII qurultayı üçün Sov.İKP MK platformasının layihəsi haqqında" (sonuncu gün MK baş katibinin təklifi ilə daha bir məsələ — müzakirəsi 1989-cu ilin dekabr plenumundan yarımçıq saxlanılmış Litva KP XX qurultayının qərarları ilə əlaqədar məsələ də gündəliyə salınır). Baş katib Mixail Qorbaçov çıxış edir və məruzənin ümumi kontekstində cəmi 15 gün əvvəl müttəfiq respublikalardan birində baş vermiş qanlı qırğın barədə, hətta məhz 19-20 yanvar hadisələri barədə deyil, 13-14 yanvar barədə bu bircə abzası söyləməklə kifayətlənir: "Bakıda talançıların hərəkətləri öz amansızlığı ilə xüsusilə fərqlənirdi. Əgər əvvəlcə Dağlıq Qarabağda və bəzi sərhədboyu rayonlarda, sonra isə Bakıda fövqəladə vəziyyət tətbiq edilməsəydi, onlarca adamın deyil, minlərlə və on minlərlə adamın qanı töküləcəkdi. Söhbət, əslində, bax, bundan gedir...".

Bəs niyə? Bu suala da məruzədə cavab var: çünki "Ümumiyyətlə, baş vermiş hadisələri tam təhlil etmək bu plenumun vəzifəsinə daxil deyildir".

Məruzə ətrafında müzakirələr başlanır, 18 nəfər (o cümlədən hətta SSRİ-nin Polşadakı səfiri) çıxış edəndən sonra — onlar da "hadisələr barədə" daha çox demokratlar və millətçilər, yenidənqurma tərəfdarları və separatçılar müstəvisindən, ümumi sözlərlə bəhs edirlər, — Azərbaycan partiya təşkilatının başçısına növbə çatır, o isə qırğınla bağlı bircə rəqəm də göstərmədən, bəzi məqamlarda ritorik suallarla faciə barədə fəlsəfi-politoloji mülahizələrini bəyan edir...

Oxucuların yadında olar, politoloq Eldar Namazovun ötən dəfəki qeydlərimdə misal gətirdiyim yazısında belə bir təklif vardı: "...təcili surətdə SSRİ Ali Sovetinin fövqəladə sessiyasını çağırmaq... onun gündəliyinə Bakı faciəsi haqqında məsələ daxil etmək...". Təbii ki, belə təkliflər onca milyonluq bir ölkədə işə keçmir, o da 250 milyonluq SSRİ kimi bir imperiya ola.Üstəlik də Eldar Namazovun təklifi əgər bir müttəfiq respublikanın səsiydisə, bu səs heç təndirdən də bayıra çıxmamışdı — dövlətin anlaya biləcəyi dildə, dövlətin mətbu orqanlarında dərc olunmamışdı, bütün ittifaqda geniş rezonans doğurmamışdı. Dövlətin özünün planları vardı. Adətən, SSRİ Ali Sovetinin sessiyalarından əvvəl Sov.İKP MK-nın plenumları çağırılır, qarşıdakı perspektiv üçün xalqın və dövlətin taleyi ilə bağlı məsələlər həmin plenumda müzakirə olunub uyğun qərar qəbul edildikdən sonra... Ali Sovetin sessiyasının müzakirəsinə verilir və burada onlara qanun donu geyindirilirdi.

İndi də əvvəl plenum oldu, özünün rəhbər partiya göstərişini verdi və fevralın 14-də SSRİ Ali Sovetinin üçüncü sessiyası işə başladı. Mixail Qorbaçov sessiyanı açdı, Ali Sovetin sədri Anatoli Lukyanov sessiyanın gündəliyi barədə məlumat verdi və SİTA-nın rəsmi məlumatında deyildiyi kimi, "SSRİ xalq deputatı, SSRİ EA-nın müxbir üzvü M.T.Abbasov 1990-cı il yanvarın 19-20-də Bakı şəhərində baş vermiş hadisələrin təhqiqatı ilə əlaqədar deputat komissiyasının bəyanatını oxudu". Bundan sonrakı cümlə: "Gündəliyə Azərbaycan və Ermənistanda vəziyyət, şəraitə qiymət verilməsi və regionda vəziyyəti sabitləşdirmək məqsədilə görülən tədbirlər haqqında ayrıca məsələ daxil edildi". Vəssalam!

Fevralın 19-da isə Rafik Nişanovun sədrliyi ilə Millətlər Sovetinin və Yevgeni Primakovun sədrliyi ilə İttifaq Sovetinin birgə qapalı iclası keçirildi. Bu, əslində, elə Ali Sovetin sessiyasının davamı idi, lakin məsələyə xüsusi vaciblik statusu verməmək üçün onu Ali Sovetin palatalarının birgə iclasında müzakirə etmək məqsədəuyğun sayılmışdı. İclas iki gün çəkdi və müzakirə edilən məsələ üzrə bəyanatın qəbul olunması ilə nəticələndi. Maraqlı məqam isə budur ki, iki günlük iclas və orada qəbul edilmiş sənəd barədə ölkənin dövri mətbuatında hər dəfə iki cümləlik informasiya verilməsi ilə məsələ bitmiş sayıldı.

Yəqin ki, elə fevralın 20-si idi. İş otağımda oturub işləyirdim. Qapı, həmişəki kimi, açıq idi, ona görə yaxınlaşanı dərhal tanıdım: Xalq Cəbhəsinin mitinq fəallarından olmayan üzvü şair Vaqif Səmədoğlu idi. Elə danışığına uyğun bir ləngərlə içəri girib salam verdi, mən otaqdakı iki boş stuldan birinə işarə edib əyləşməsini istədim. Etiraz etmədi, sanki uzun yol gəlmişdi, bir növ tövşüyən kimiydi, oturub bir hovur nəfəs dərməliydi. Dərdi və arxası pəncərəyə — "Nizami" kinoteatrına tərəf oturduğu halda qaşları ilə yuxarıya tərəf işarə ilə soruşdu:

— Sizdə nə xəbər var?.. — Yəni ki, bizim nələrdənsə xəbərimiz var, bəs sizdə əlavə nə var.

Yəqin şair güman edirmiş ki, əgər biz ölkənin 1 nömrəli qəzetiyiksə, üstəlik də Mərkəzi Komitə ilə birbaşa bağlıyıqsa, deməli, bizdə müəyyən dairələrə məlum olmayan hansısa məlumatın olacağına ümid bəsləmək mümkündür.

— Nə vermişiksə, bildiyimiz də elə budur, — deyə mizin üstündəki qəzetin təzə nömrəsinə işarə elədim. — Amma ola bilsin ki, saat 11-dən sonra təzə nəsə olsun, gözləyirik...

— Həə... — Şair bir qədər pauza verdikdən sonra dedi: — Nə cür alçaqlıq desən, bunlar ona əl atırlar. Yazov dünən çıxış eləyib, — bu, mənim üçün təzə informasiya idi, çünki qapalı iclas barədə dərc etdiyimiz informasiyada nəinki bu barədə, ümumiyyətlə, hər hansı bir çıxışçı barədə heç bir məlumat yoxdu, — deyib ki, bu azərbaycanlılara inanmaq olmaz, bunlar Mərkəzi şantaj eləmək üçün hər cür fırıldağa əl atırlar. Bu dəfə onlar Kirov adına mərkəzi parkda qazdıqları qəbirləri doldurmaq üçün Dağıstandan nə qədər cəsəd alıb gətiriblər... Rəqəm də göstərib... Dedim, bəlkə sizdə bunun yazılı mətni var, ona görə gəldim...

Marşal Dmitri Yazov o vaxt SSRİ-nin müdafiə naziri idi, yanvarın 20-də Bakıda fövqəladə vəziyyətin tətbiqi barədə qərarın qəbul olunması və "FV-yə əməl edilməsi" əməliyyatına bilavasitə sovet qoşunlarının cəlb olunması prosesinə rəhbərlik etmişdi, dolayısı ilə şəhidlərimizin birbaşa qatillərindən biri idi. Sonralar — Bakı qırğınından 12 il sonra internetdə xəbər yayılmışdı ki, Yazov özünün hərbçi şərəfinin tərkib hissəsi olan şeyləri satışa çıxarıb: marşal papağını 500 dollara, marşal vəsiqəsini isə 200 dollara...

Şübhəsiz ki, sir-sifətindən daha çox rus ayısına oxşayan bu adamın Bakıdakı tarixi cinayətini bu cür əcaib formada ört-basdır etməsi inandırıcı səslənirdi.

...Yazovun həmin çıxışının audioversiyasını 1990-cı ilin oktyabrında dinlədim: o vaxt rəsmən SSRİ Ali Soveti Rəyasət Heyətinin üzvü, sonralar isə müstəqil Azərbaycan Respublikasının ilk dövlət katibi mərhum Tofiq İsmayılov Ali Sovet palatalarının qapalı iclasındakı müzakirələrin gedişində portativ maqnitofon kasetinə yazılmış həmin çıxışı "Kommunist"in redaksiyasına kiməsə gətirmişdi. Kaset əldən-ələ keçdi və nəhayət, mənə də onu dinləmək növbəsi çatdı...

Vaqif Səmədoğlunun redaksiyaya gəlişindən bir gün sonra — fevralın 21-də "Kommunist"də Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibovun fevralın 19-dakı müzakirələr zamanı etdiyi çıxışın mətni dərc olundu. Həmin çıxışda iki ildən bəri davam edən Ermənistan-Azərbaycan münaqişəsi, o cümlədən həmin münaqişənin doğurduğu 20 yanvar qırğını ilə bağlı bircə rəqəm əksini tapıb — guya Quqarkda 70 nəfər azərbaycanlı qurban gedib. 20 yanvar heç yada da düşmür...

P.S. Stanislav Qovoruxinin 9 dildə nəşr edilən və 140 ölkədə yayımlanan "Moskovskiye novosti" qəzetində dərc olunmuş məqaləsi "Yoxsa məşqdir bu?" adlanırdı. Özü ustad tərcüməçi ola-ola Rəfail Nağıyev onu dilimizə çevirməyi şair-tərcüməçi Əhəd Muxtara həvalə eləmişdi. Həmin məqalə əvvəl-axır "Kommunist"də də çap olundu — "Müəyyən səbəblərə görə material ixtisarla dərc edilir" qeydi ilə!

Ötən dəfə "Yaddaşımın küncündən..." buna da toxunmuşdum...

**Fevral 1990 — sentyabr 2012**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# Açıq cəmiyyət və mətbuat



*Tofiq YUSİFOV*

Açıq cəmiyyətin yaranması və ideyalarının bütün dünyada rezonans doğurması, demokratik cəmiyyətlərin inkişafının ayrılmaz hissəsinə çevrilməsi ötən əsrdə reallaşsa da, bu proses KİV-in ictimai həyata fəal müdaxiləsi və onun rolunun, nüfuzunun getdikcə artması nəticəsində son 20 ildə daha populyar, qaçılmaz və aktual olmuşdur. Kifayət qədər maraqlı olan bu araşdırma dünya ölkələri mətbuatının açıq cəmiyyətin formalaşması istiqamətində fəaliyyət prinsiplərinin əsas məqamlarının öyrənilməsindən və Azərbaycan mətbuatının 1991-2004-cü illərdə sözügedən sahədə uğur və çətinliklərindən bəhs edir. Ölkəmizin Avropaya, Qərbə inteqrasiya ilə bağlı strateji siyasəti kontekstindən demokratik, sivil dəyərlərin mətbuatda təbliği və KİV vasitəsi ilə toplumun açıq cəmiyyətin əsas prinsiplərindən olan debatlar sisteminə, aşkarlıq, şəffaflıq, xalqla hakimiyyətin dialoqu, fərdlərin və ayrı-ayrı ictimai qrupların dövlətin idarə olunması prosesində iştirakı və s. məsələlərə hazırlanmasına elmi aydınlıq gətirilmişdir.

Ölkədə demokratiyanın daha da dərinləşməsi, insanların azad, sərbəst, firavan yaşaması, ölkəyə həqiqi sahiblik hissinin aşılanması, sosial, iqtisadi və siyasi problemlərin həllini sürətləndirmək üçün əvəzolunmaz gücə və böyük təşkilatçılıq qabiliyyətinə malik KİV-in bütün imkanlarını səfərbər etməyin elmi əsasları müəyyənləşdirilmişdir.

Bu araşdırmada həmin məsələlərlə bağlı bir sıra nəzəri fikirlər öz əksini tapmışdır və bu məqam gələcəkdə yeni araşdırmalar üçün də əsas ola bilər. Burada ayrı-ayrı ölkələrin mediasının sözügedən aspektdən fəaliyyəti sistemli şəkildə təhlil olunmuşdur.

Jurnalistika bir elmi istiqamət kimi öz nəzəri prinsiplərində uzun illər filologiya, siyasət, fəlsəfə və tarix elmlərinə sıx dərəcədə yaxınlaşmışdır. Bu dissertasiyanın nəzəri əsasları da ümumən filoloji aspektdədir. Amma bununla belə, kitabın ümumi ruhu, istiqaməti və qayəsi artıq bütün dünyada formalaşan, ciddi şəkildə qəbul edilən jurnalistika elminin nəzəri problemləri ilə sıx şəkildə uzlaşdırılmışdır. Ona görə də bu araşdırmanın nəticələrindən ali məktəblərin jurnalistika və humanitar fakültələrinin proqram və dərsliklərinin yazılmasında, mətbuat və dövlət, dövlət və cəmiyyət, inteqrasiya və milli-mənəvi dəyərlərin qorunub inkişaf etdirilməsi və digər məsələlərə dair elmi-tədqiqat əsərlərinin yazılmasında, habelə jurnalistika və sosiologiyaya dair xüsusi kursların aparılmasında istifadə oluna bilər.

Kitabın nəzəri əhəmiyyəti yeni cəmiyyət quruculuğu prosesində dünya ölkələrinin kütləvi informasiya vasitələrinin fəaliyyət prinsiplərini araşdıraraq, onların təcrübəsində Azərbaycan KİV-nin açıq cəmiyyətin formalaşması dövründə fəaliyyətinin nəzəri əsaslarını yaratmaqdır. Mətbuatın ölkədə gedən quruculuq proseslərinə təsiri, cəmiyyətin bu quruculuq səylərini dərindən qavraması və dəstəkləməsi, cəmiyyətlə dövlət arasında münasibətlərin sivil qaydada tənzimlənməsi və qarşılıqlı etimad mühitinin yaradılması, insan hüquq və azadlıqlarının təbliği işində aparıcı rolunun ayrı-ayrı elementləri bu nəzəri əsasların mahiyyətini təşkil edən kateqoriyalardır. Söz və mətbuat azadlığı demokratik inkişafın ən başlıca istiqamətidir. Azad söz və azad mətbuat cəmiyyətdə aşkarlığın və demokratik prinsiplərin bərqərar olunmasında aparıcı rol oynamaqla yanaşı, demokratiyanı səciyyələndirən əsas amillərdən sayılır. Məhz bu səbəbdən bir çox ölkələrdə demokratiyanın səviyyəsini dəyərləndirərkən bu iki kriteriya hökmən nəzərə alınır. Çünki mətbuat azadlığı elə o cəmiyyətin azadlığının göstəricilərindən biridir. Bu, bütün dünyada olduğu kimi, Azərbaycanda da belədir.

Burada bəhs olunan məsələlərin praktiki əhəmiyyəti özünəməxsus məqamlarla bağlıdır və xüsusi önəm təşkil edir. Bu araşdırmada yer alan bir sıra müddəalar, nəticələr və mülahizələr qeyri-hökumət təşkilatları, siyasi partiyalar, ayrı-ayrı rəsmi strukturlar və nəhayət, KİV-in taktiki və strateji fəaliyyətində yardımçı ola bilər. Sözügedən mövzuda yazan jurnalistlərin və ayrı-ayrı kollektivlər də araşdırmadan yararlanması mümkündür. Bu araşdırma vətəndaş həmrəyliyinə və mənəvi-siyasi stabilliyə meyl edən ayrı-ayrı siyasətçilərə, eləcə də fərdlərə yardımçı olmaqla yanaşı, demokratik cəmiyyət və sivil davranış normaları, medianın cəmiyyətin həyatındakı rolu barədə araşdırmalara da kömək edə bilər.

### Azərbaycanda açıq cəmiyyətin formalaşması prosesi və mətbuat

***Açıq cəmiyyət anlayışı və mətbuat***

Müasir cəmiyyətdə mətbu proseslərin sürətli inkişafı bir sıra amillərlə bağlıdır və bu inkişaf özünün məntiqi nəticələrini meydana çıxarır. Tərəqqidə olan ictimai-siyasi formasiyanın, konkret cəmiyyətin lokomotivi elmi-texniki inqilab, yeni ictimai münasibətlərin yaranması ilə reallaşan, evalyusiyanın danılmaz atributuna çevrilən informasiyadır. Məhz informasiya axınının intensivləşməsi, planetin ən fərqli ictimai-siyasi mühitində, eləcə də kommersiya dünyasında bu əmtəəyə sonsuz maraq onu sivilizasiyanın taleyini müəyyən edəcək, bəlkə də dəyişəcək səviyyəyə qaldırır.

İnformasiyanın əsas daşıyıcısı olan media üçün isə söz və mətbuat azadlığı demokratik inkişafın ən başlıca istiqamətidir. Azad söz və azad mətbuat cəmiyyətdə aşkarlığın və demokratik prinsiplərin bərqərar olmasında aparıcı rol oynamaqla yanaşı, demokratiyanı səciyyələndirən əsas amillərdən sayılır. Ayrı-ayrı ölkələrdə demokratiyanın səviyyəsini dəyərləndirərkən bu iki kriteriya hökmən nəzərə alınır, çünki mətbuat azadlığı elə cəmiyyətin azadlığının göstəricilərindən biridir.

Bəs açıq cəmiyyət nədir və özündə hansı qanunauyğunluq və prinsipləri ehtiva edir? Bu cəmiyyətin formalaşması üçün hansı şərtlərin olması zəruridir?

Açıq cəmiyyət elə bir cəmiyyətdir ki, elə bir fakta əsaslanır ki, heç kim həqiqət üzərində mütləq monopoliyaya malik deyildir, müxtəlif adamların müxtəlif nəzər — nöqtələri ola bilər, ayrı-ayrı qurumlar insan hüquqlarını mütləq müdafiə etməlidir, bütün insanlara sərbəst və əmin-amanlıq şəraitində yaşamaq imkanı verilməlidir. Buradan da aydın olur ki, debatlar açıq cəmiyyətin ilkin şərtlərindən biri, ayrılmaz hissəsidir. Bu qənaət müasir rus və dünya mətbuat nəzəriyyəçilərinin əsərlərində də dəfələrlə bu və ya digər formada öz təsdiqini tapmaqdadır . Ümumilikdə isə açıq cəmiyyət qanunun aliliyini, demokratik yolla seçilmiş hökumətin varlığını, orada müxtəlif cəmiyyətlərin olmasını qəbul edən, ictimai azlıqlara və onların hüquqlarına hörmət edən bir cəmiyyət kimi xarakterizə olunur.

“Açıq cəmiyyət” anlayışı özünün yaranması və populyarlıq qazanması üçün ilk növbədə fransız filosofu Anri Berqsona minnətdar olmalıdır. “İntuitivizm” və “həyat fəlsəfəsi” cərəyanlarının qatı tərəfdarı olan A. Berqson hələ 1932- ci ildə yazmış olduğu “Mənəviyyat və dinin iki mənbəyi” kitabında bir-birinə tam əks mövqedə dayanan “açıq cəmiyyət “ və “qapalı cəmiyyət” fəlsəfi kateqoriyalarını müasir elmi — siyasi müstəviyə, daha konkret olaraq isə, sosial həyata daxil etmişdir.

Lakin A. Berqsonun sözügedən əsərində “açıq cəmiyyət” anlayışı yalnız dini — fəlsəfi məna daşıyır və ictimai həyatın digər sahələrinə tətbiq olunmur. Başqa sözlə deyilsə, bu kateqoriya sözügedən kitabda dini məzmun kontekstindən araşdırılır.

Avstriya mənşəli Böyük Britaniya alimi Karl Popperin 1945-ci ildə işıq üzü görmüş məşhur “Açıq cəmiyyət və onun düşmənləri” kitabından sonra açıq cəmiyyət araşdırmaları geniş şöhrət qazandı. Bu ikicildlik kitabda açıq cəmiyyət fəlsəfəsini özünün elmi səmərəlilik fəlsəfəsi ilə birləşdirən Popper iddia edir ki, “gələcək bizdən asılıldır və bizə heç bir tarixi zərurət təzyiq göstərmir”, “obyektiv tarixi prosesi öyrənməklə” yaratdıqları nəzəriyyə əsasında gələcəkdən xəbər verən “rəmmallar” ən azı səhv edirlər. Digər məqamda isə tarixilik əleyhdarı israr edir ki, “ gələcəyi qabaqcadan görmək olmaz, lakin onu kəşf etmək olar.” Belə fəlsəfə insanı həm öz nəzəriyyələrinin real həyata uyğunluğuna nəzarət etməyə, həm də fəal həyat mövqeyi tutmağa, konkret hərəkətlərə, xoşbəxt gələcəyə doğru təklikdə konkret addımlar atmağa sövq edir.

Məhz buna görə də Popper 5-7 il üçün nəzərdə tutulan qlobal planların əleyhinə çıxış edir. Popper hesab edir ki, kiçik addımlarla hərəkət etmək və lokal eksperimentlərdən təcrübə toplamaq lazımdır. Belə siyasəti o, “sosial mühəndislik” adlandırır. Sosial mühəndislik tərəfdarları hesab edirlər ki, siyasətin elmi əsasını ictimai institutları bizim məqsəd və arzularımıza uyğun olaraq qurmaq və ya dəyişmək üçün zəruri olan informasiyanın toplanması təşkil edir.

Karl Popper kimdir?

Ser Karl Popper elmi fəlsəfə, siyasi nəzəriyyə və sosiologiya sahəsində böyük xidmətləri ilə məşhurlaşmışdır. K. Popperin Debatlar Klubu məhz onun şərəfinə belə adlandırılmışdır. Qeyd edildiyi kimi, 1945-ci ildə yazdığı “Açıq cəmiyyət və onun düşmənləri” kitabı ilə Popper açıq cəmiyyət ideyasını məşhurlaşdırmışdır ki, bu anlayış da fəlsəfə, məntiq, iqtisadiyyat, politologiya, filologiya və jurnalistika elmlərinə güclü təsir göstərmişdir.

Karl Popper 1902-ci ildə Avstriyada anadan olmuş, təhsilini Vyana Universitetində almış və 1928-ci ildə elə orada ona bakalavr dərəcəsi verilmişdir. 1930-cu ilin sonlarında Karl Popper Yeni Zelandiyanın Kaystçers Universitetində dərs demək üçün Vyananı tərk edir.

1946-cı ildə onu London İqtisadiyyat Məktəbində dərs demək üçün Böyük Britaniyaya dəvət edirlər. Burada o, məntiq və elmi metod üzrə professor elmi dərəcəsi alır.

1972-ci ildə Popperə zadəgan titulu (ser) verilir və on ildən sonra isə o, Böyük Britaniyanın Fəxri Ordeninə layiq görülür. Karl Popper Kral Cəmiyyətinin, Britaniya Akademiyasının, Amerika Elm və İncəsənət Akademiyasının, həmçinin bir sıra milli və beynəlxalq Akademiyaların üzvü seçilmişdir.

1994-cü ilin iyununda K.Popper Praqada Mərkəzi Avropa Universitetində mühazirələrlə çıxış edir. Bu universiteti o, sabiq Sovet İttifaqı və Şərqi Avropada açıq cəmiyyət ideyalarını aşılayacaq intellektual bir mərkəz kimi təsis etmişdi.

“Açıq cəmiyyət və onun düşmənləri” kitabından başqa K. Popper “Elmi kəşfin məntiqi”, “Tarixçiliyin kasıblığı”, “Gümanlar və təkziblər”, “Obyektiv biliklər”, “Realizm və elmin məqsədi”, “Açıq kainat” və s. kimi geniş şöhrət qazanmış əsərlərin də müəllifidir.

Karl Popper 1994-cü ilin sentyabrında vəfat etmişdir.

Popperin anlamında açıq cəmiyyət tamamilə demokratikdir. Bu cəmiyyət qeyri — məhdud kapitalizm deyildir, eyni zamanda, onun kökündə marksizm və ya anarxizm də dayanmır: o, demokratiyanın müstəqil, ayrıca variantıdır.

**(Ardı var)**




Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Su anbarlarında yenidənqurma işləri aparılıb

“Azərsu” Açıq Səhmdar Cəmiyyəti istehlakçıların içməli su təchizatının yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu məqsədlə magistral su xətlərində, anbarlarda, nasosxanalarda təmir-bərpa və yenidənqurma işləri aparılır. Bakı şəhərinin şərq hissəsində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə “+110 Şərq” və “+ 69 Şərq” anbarlarında əsaslı yenidənqurma işləri aparılıb. Belə ki, “+69 Şərq” su anbarında uzun müddət istismarda olan 700 mm diametrli kollektor 1400 mm diametrli yeni kollektorla əvəz edilib. Yeni kollektorun istismara verilməsindən sonra burada daha böyük həcmdə su ehtiyatının toplanmasına və paylayıcı şəbəkəyə ötürülən suyun həcminin artırılmasına imkan yaranıb. Eyni zamanda anbarların çıxışında nasosxanaları normal təzyiqli su ilə təmin etmək məqsədi ilə çıxış kol-



lektorları yenilənib.

Qeyd edək ki, paytaxtın Xətai, Suraxanı, Nizami və Sabunçu rayonlarının 220 mindən çox sakininə bu anbarlardan içməli su verilir. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, bu ərazidə yaşayan sakinlərin fasiləsiz içməli su ilə təmin olunması üçün anbarlardan verilən suyun həcmi saniyədə 1,73 kubmetr olmalıdır. Halbuki hazırda ən yaxşı halda bu göstərici saniyədə 1,45 kubmetr təşkil edir. Digər tərəfdən indiyə qədər 185 min kubmetr tutumu olan anbar kompleksinə sutka ərzində maksimum 125 min kubmetr su yığmaq mümkün olurdu. Anbarlarda aparılan əsaslı yenidənqurma işlərindən sonra bu göstəricini 180 min kubmetrə çatdırmaq və tələbatdan da artıq-saniyədə 2,14 kubmetr su ötürmək imkanı yaranacaq.

Bununla da paytaxtın Xətai rayonunun əksər hissəsini, Suraxanı rayonunun Yeni Günəşli yaşayış massivini, Sabunçu rayonunun Bakıxanov qəsəbəsini, həmçinin Nizami bir hissəsini fasiləsiz rejimdə içməli su ilə təmin etmək mümkün olacaq. Suyun təzyiqinin artması 44 ədəd məhəllədaxili nasos stansiyasının və bunlara aid su anbarlarının ləğvinə imkan verəcək.

**BƏXTİYAR**

# Azərbaycanda əmək pensiyaçılarının 371 137 nəfəri ahıl vətəndaşlardır

Azərbaycanda əmək pensiyaçılarının 371 137 nəfəri ahıl vətəndaşlardır. Dövlət Sosial Müdafiə Fondu ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, onlardan 147 934 nəfəri kişi, 223 203 nəfəri isə qadındır.

BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul edib və həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i bütün dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Ümummilli lider Heydər Əliyev 22 iyun 2001-ci il tarixində “Ahıllara sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununu imzalayıb. Qanuna əsasən, ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur.

Hazırda ahıl pensiyaçıların 275 723 nəfəri 70-80 yaş arası, 86530 nəfəri 80-90 yaş arası, 8884 nəfəri 90-dan artıq yaşı olan vətəndaşlardır.

Azərbaycanda digər pensiyaçılar kimi ahılların da problemləri həmişə diqqət mərkəzində saxlanılır, yaşlı əhalinin sosial rifahının yaxşılaşdırılması və pensiyaların artırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Ölkəmizdə yeni sığorta-pensiya sisteminin fəaliyyət göstərdiyi 2006-cı ildən hazıradək Azərbaycan Respublikası Prezidenti tərəfindən yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması ilə bağlı 7, sığorta hissəsinin artırılması ilə bağlı 6 sərəncam verilib, bununla yanaşı, əvvəlki sistemlə əhatə olunmuş şəxslərin yeni şəraitə inteqrasiyasının tamamlanması üçün ardıcıl qərarlar qəbul edilib. Nəticədə yeni sistem fəaliyyətə başladığı dövrdən hazıradək əmək pensiyalarının minimum məbləği 3,4 dəfə, orta aylıq məbləği isə 5,2 dəfə artıb. Hazırda ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləği 151 manat, o cümlədən yaşa görə əmək pensiyalarının orta aylıq məbləği 167 manat təşkil edir.

**BƏXTİYAR**

# Ötən həftə ölkə ərazisində 26 əcnəbi saxlanılıb

Azərbaycan Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən həyata keçirilən tədbirlər ötən həftə də davam etdirilib. Xidmətdən verilən məlumata görə, sentyabrın 24-28-də DMX tərəfindən Bakı şəhəri ərazisində qanunsuz miqrasiyaya qarşı keçirilən müvafiq tədbirlər nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə zidd olaraq fərdi icazə alınmadan əmək fəaliyyətinə cəlb edilmiş, eyni zamanda ölkədə olma və yaşama qaydalarını pozmuş 26 əcnəbi aşkar edilib. Həmin şəxslər barəsində inzibati qanunvericiliyinin tələblərinə uyğun olaraq müvafiq qərarlar qəbul olunub.

Qeyd edək ki, DMX tərəfindən qanunsuz miqrasiyanın aşkar edilərək qarşısının alınması istiqamətində paytaxtda və ölkənin regionlarında müvafiq tədbirlər davam etdirilir.

**BƏXTİYAR**

# “Təmizlik naminə” şüarı altında təmizlik aksiyası

Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Təmiz Şəhər” ASC tərəfindən Buzovna çimərliyində “Xəzər həftəsi”nə həsr olunmuş təmizlik aksiyası keçirilib. ASC-dən verilən məlumata görə, “Təmiz Şəhər” tərəfindən ildə 2 dəfə-çimərlik mövsümündən öncə və sonra təmizlik aksiyaları keçirilir. Artıq ənənə halını almış iməcliklərin keçirilməsində məqsəd paytaxt sakinləri və qonaqlara təmiz və gözəl istirahət şəraiti yaratmaq və onları istirahət məkanlarında təmizliyin qorunmasına təşviq etmək, bəzi sakinləri ətraf mühiti çirkləndirməkdən çəkindirməkdir.

“Təmizlik naminə” şüarı altında keçirilən təmizlik aksiyasında bir daha “Xəzərin sahillərinin ekoloji sağlamlığı hər birimizdən asılıdır” mesajı ictimaiyyətin diqqətinə çatdırılıb. Aksiyaya şəhər əhalisi, yerli sakinlər, xüsusilə gənclər qoşulub və iştirakçılar nəqliyyat, üzərində təşkilatçıların loqotipləri olan köynək, papaq, əlcəklərlə təmin edilib. Tədbir çərçivəsində 200-ə yaxın könüllü Buzovna çimərliyinin plastik torba, butulka, kağız, karton və digər məişət tullantılarından təmizlənməsində iştirak edib. Buzovna çimərliyinin təmizlənməsi nəticəsində toplanmış bütün tullantılar hazırda sınaq rejimində fəaliyyət göstərən Tullantıların Çeşidlənməsi Zavoduna daşınıb və orada çeşidlənərək təkrar emala yararlı materiallar seçilib.

**BƏXTİYAR**

# “Xəzər həftəsi”nə yekun vurulub

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən sentyabrın 24—30-da keçirilən “Xəzər həftəsi” başa çatıb. Nazirlikdən verilən məlumata görə, “Xəzər həftəsi”nin qeyd olunması məqsədilə nazirlik tərəfindən hazırlanmış tədbirlər planına müvafiq olaraq Xəzər dənizinin Azərbaycana mənsub 955 kilometrlik sahil zolağında (Nabran, Sumqayıt, Bakı, Neftçala, Lənkəran şəhər və rayonlarının ərazilərində) vətəndaşların, yerli icra strukturlarının, qeyri-hökumət təşkilatlarının, təhsil müəssisələrinin nümayəndələrinin və şagirdlərin iştirakı ilə iməciliklər keçirilib,



məişət və sənaye tullantıları yığılaraq zibil poliqonuna daşınıb.

Eyni zamanda, orta təhsil müəssisələrində lektoriyalar təşkil edilib, idarə və müəssisələrdə Xəzər dənizinin bioresurslarının mühafizəsinin vacibliyi barədə mühazirələr oxunub və dəyirmi masalar təşkil olunub. Keçirilən tədbirlərdə ETSN-nin mütəxəssisləri tərəfindən ictimaiyyətə su hövzələrinin zənginliyi barədə məlumatlar verilib, həmçinin hər bir sakinə bu resursların qorunmasının vacibliyi təbliğ edilib.

Bununla da, “Beynəlxalq Dəniz Günü” ilə əlaqədar nazirlik tərəfindən keçirilən “Xəzər həftəsi”nə yekun vurulub.

**BƏXTİYAR**

# “Buzovna broyler”ə qadağa

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsində fəaliyyət göstərən fiziki şəxs Sahib Abbasova məxsus broyler müəssisəsində dövlət nəzarəti aparılıb. Komitədən verilən məlumata görə, araşdırma zamanı müəyyən edilib ki, müəssisədə istehsal olunan məhsulların müvafiq keyfiyyətdə sabit istehsalına şərait yoxdur. Belə ki, cücənin tüklərdən, içalatdan təmizlənməsi sahəsi, kəsim sahəsi sanitariya normalarına cavab vermir. Seçilmiş nümunələrin Komitənin Təcrübə- Sınaq Mərkəzinin (AzTEST) sınaq laboratoriyasında keçirilən müayinəsi zamanı broyler cücə əti və toyuq içalatında bağırsaq çöpü qrupundan olan bakteriyalar (fekal çirklənmə, E.Coli mikroorqanizimləri) aşkar edilib. Müəssisədə istehsal olunan məhsullar üçün müvafiq normativ sənədlər üzrə (QOST 25391-82 bənd 1.1 və AZS 299-2008 bənd 3.1.1) müəyyən edilmiş qaydada təsdiq olunmuş texnoloji təlimat yoxdur.

Bundan başqa müəyyən olunub ki, müəssisədə halal məhsul istehsalı üçün mövcud normativ sənəd AZS 372-2012 “Halal” ət məhsulları standartının tələblərinə əməl olunmadığı halda məhsullar “Halal” məhsul kimi təqdim edilir. Bununla da müəssisə tərəfindən “Yeyinti məhsulları haqqında” Qanunun 5-ci, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunun 10-cu maddələrinin tələbləri pozulub.

Müəssisənin inkubatoruna baxış zamanı heç bir sertifikatı və mənşə sənədləri olmayan bildirçin yumurtaları aşkar edilib. Həmçinin müəssisə tərəfindən “Murad Agro” MMC və “Maştağa Broyler” MMC üçün kəsimin həyata keçirildiyi müəyyən




olunub. Bu məhsullar müəssisənin soyuducu anbarından aşkar edilib. Toyuq yeminə qatılan enzimin, lizinin, metianinin, müxtəlif vitaminlərin mənşə sənədləri və sertifikatları, həmçinin inkubasiya üçün Türkiyədən alınmış yumurtaların mənşə sənədləri və sertifikatları da araşdırmaya təqdim edilməyib.

Məhsul istehsalında istismar olunan ölçmə vasitələri “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Qanunun 11.1 bəndinə zidd olaraq müqayisəli yoxlamadan keçməmiş halda istifadə olunur.

Aşkar olunmuş nöqsanlara görə fiziki şəxs Sahib Abbasova məxsus sexdə broyler cücə ətinin və toyuq içalatının istehsalı və satışı qadağan edilib.

**BƏXTİYAR**

# Moskvada şərqşünas alim Tofiq Məliklinin 70 illiyi qeyd edildi

Dünən Moskva Ədəbiyyatçılar Evinin böyük zalında tanınmış şərqşünas alim, türkoloq, Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin rəhbəri Tofiq Məliklinin 70 illik yubileyi ilə bağlı təntənəli gecə təşkil olundu.




Rusiya və Azərbaycan ədəbi-mədəni və ictimai birliklərinin nümayəndələrinin qatıldıgı təbdir Tofiq Məliklinin həyat və yaradıcılığının bir qismini öz diliylə anlatdığı filmin nümayişi ilə başlandı. Elə buradan yol alan gecədə Tofiq Məlikli ürəyindən qor alıb yanan ”Ocaq” ətrafında, onun keçdiyi ömür yolunun hesabatı dinlənildi.

“Qaralamazsız yaşanan ömür” kitabında geriyə boylanıb baxanda qaralamadan və qaralanmadan 70 illik bir zamana imza atan türkoloq alimlə bağlı çıxışlar oldu.

Yubileydə ilk təbrik nitqi ilə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu danışdı. Səfir, Tofiq Məliklinin 1990-cı illərdə SSRİ imperiyasının törətdiyi Bakı qətliamına qarşı Moskvada hər kəsi bir araya toplayaraq Azərbaycanın haqq savaşı uğrunda mübarizəsinə toxunaraq “Rusiyada diplomatik fəaliyyətə başladığım gündən yaxından tanimağa müvəffəq olduğum Tofiq müəllim haqqında sadəcə bunu demək yetər. Sevinirəm ki, Rusiyada Azərbaycanı tanıdan, təmsil edən Tofiq Məlikli kimi ziyalı yaşayır. Keşkə, Azərbaycan üçün belə yanan, onu belə sevdirən insanlarımız çox olaydı”-dedi. Polad Bülbüloglu Tofiq müəllimin davamçıları olacaq gənclər yetişdirib, ondan örnək alanların sıralanacağına ümidvar olduğunu əlavə etdi. O, diplomatik korpusun bütün nümayəndələri adından və şəxsən öz adından yubilyara can sağlığı, üzün ömür dilədi.

“Hiss verən, his verməyən, istisiylə isindirən, tüstüsüylə “Ocağ”ımıza yad baxan gözləri yaşardan” cəmiyyət sədri haqqında Azərbaycan Yazıçılar Birliyinin katibi, tanınmış yazıçı Çingiz Abdullayev bunları xatırlatdı: “Uzun zaman bizə Allahsız olmağı öyrətdilər, SSRİ-dən qopanda isə vicdansız olmağı. Allahsız və vicdansızlıqla yaşanan illərdə Tofiq müəllim atılan o daşları topladı”. Tofiq Məlikli şəxsiyyətinə bu baxış prizmasından baxan yazıcı Azərbaycanın xalq yazıçılarının da təbrik dolu ismarıcını ona çatdırdı .

Rusiya Yazıçılar Birliyindən “Moskovskiy literator” qəzetinin baş redaktoru İvan Qolubniçiy Rusiya-Azərbaycan ədəbiyyatı vasitəsiylə xalqlarımız arasında tarixi ədəbi-mədəni əlaqələri qoruyub saxlamaqda əsl vətənpərvər kimi çıxış edən Tofiq müəllimə minnətdarlıqla onun S. Yesenin adına “Zolotaya Osen” (“Qızıl Payız”) ordeninə layiq görüldüyünü bildirib, hədiyyəni təqdim etdi.

Qazaxıstan diasporunun rəhbəri Polad Camalov Tofiq müəllimlə bağlı fikirlərini söyləyərək, “məmurlar açıq sözlü, cəsarətli adamları sevməzlər”- dedi. Bununla ədəbi-elmi və ictimai mühitdə bir əsgər kimi savaşdığına eyham etdi. O, Tofiq Məlikliyə hədiyyə kimi Qazaxıstanın milli paltarını geydirdi.

“Ocaq” cəmiyyəti idarə heyətinin üzvləri adından isə rəhbərlərinə“Tofiq Məliklinin “nöqsanları” mövzusunda olan yumoristik şeiri İlham Bədəlbəyli oxudu. Və yubilyara Azərbaycan kişisinin simvolu olan buxara papaq hədiyyə edildi.

Tofiq Məlikli bu isti münasibətdən gözü yaşararaq “belə bir papaq arzusunda olduğunu”-da bildirdi. “İndi oldum, sultan” — deyə yumorundan qalmadı.

Bu hədiyyədən sonra Tofiq müəllimin başındakı papagna işarə ilə “Dərviş” teatrının aktrisası olan aparıcı : “Belə Sultan bəy mənə evlənmək təklif eləsə, etiraz etməzdim”-dedi.

“Gecənin sultanı”nı daha sonra Diasporla İş üzrə Dövlət Komitəsinin yetkilisi Rizvan Əliyev təbrik edərək Komitə sədri Nazim İbrahimovun təbrikini və nəfis işlənmiş kiçik xalçanı, Ümumrusiya Azərbaycanlıları Konqresinin icraçı direktoru Mikayıl Hüseynov isə Rusiyanın əməkdar rəssamı Əsgər Məmmədovun Tofiq Məliklinin yağlı boya ilə işlənmiş portretini hədiyyə verdi.

Gecə Bakıdan gələn musiqili qonaqların ifasının hərarətiylə daha da isindi. Azərbaycanın əməkdar artisti Lalə Məmmədovanın, müğənni Fuad Dadaşovun, “Xalq ulduzu” musiqi müsabiqəsinin laureatı Xəyalə Qafarzadənin ifaları alqışla qarşılandı. V Ümumrusiya istedadlar və gözəllik müsabiqəsinin laureatı 12 yaşlı Nigar Zakirovanın skripkada Azərbaycan mahnılarını ifa etməsi, Moskvadakı 157 saylı Azərbaycan məktəbinin şagirdlərinin Tofiq Məliklinin şeirlərinindən hazırladığı kompozisiya, Moskva Dövlət Linqvistika Universitetinin tələbələrinin doğma dilimizdə müəllimlərini şeir və mahnı ifaları ilə təbriki də gecənin yadda qalan anlarından idi.

Gecədə Moskva hökuməti sosial- siyasət məsələləri üzrə paytaxt merinin birinci müavini Lyudmila Şvetsovanın, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın təbrik teleqramları oxundu.

Yubiley gecəsi Rusiyadakı Azərbaycan “Dərviş” teatrının Tofiq Məliklinin şeirləri əsasında hazırlanmış kompozisiyası və yubilyarın bu gözəl gecəni təşkil edən, ona unudulmaz anlar yaşadan hər kəsə minnətdarlığı ilə başa çatdı.

**Tünzalə VƏLİQIZI,**
**Moskva**

# Mustafa Çəmənli “Ölüm mələyi” kitabını imzaladı



Tanınmış yazıçı və publisist Mustafa Çəmənlinin “Ölüm mələyi” adlı kitabının təqdimat və imza mərasimi keçirilib. “Əli və Nino” kitab evində baş tutan tədbiri görkəmli dramaturq Əli Əmirli açıb. Dramaturq yazıçının yaradıcılıq fəaliyyətindən bəhs edib. Mustafa Çəmənlinin vətən yolunda canlarını fəda edən insanların talelərini, tarixi hadisələrin anatomiyasını göstərməkdə məharətli qələm işlətdiyini qeyd edən Əli Əmirli bu dəfə də yazıçının çox çətin və məsuliyyətli bir mövzuya toxunduğunu vurğulayıb: “Mustafa müəllim orta əsrlər Azərbaycan tarixini əks etdirən roman yazmaqla çox dəyərli bir əsər ortaya qoyub. Əsərdə Mustafanın əvvəlki əsərlərindən daha çox dramatizm, dinamiklik var. Hətta mən deyərdim ki, bu roman əsasında çox yaxşı bir səhnə əsəri hazırlamaq olar. Çünki burda kifayət qədər material var”.

Sonra çıxış üçün söz professor Cahangir Məmmədliyə verilib: “Mən Mustafanın müəllimi olmaqdan həmişə qürur duymuşam. Mustafa Çəmənli özünü təqdim etdirən yazıçılardan deyil. O, çox təmkinli olmaqla yanaşı, həm də olduqca həyalı insandır. Yaradıcılığında daha çox Qarabağ məsələsinə toxunmaqla Mustafa




hamımızın ortaq dərdinə bir ayna tutur. Mustafa Çəmənlinin tarixi romanları Azərbaycan tarixini bizə yenidən yaşadır və yeri gəldiyində bizə qürur hissi duyurur. Tarixi şəxsiyyətləri əsərlərə gətirmək və onları bizə obyektiv şəkildə çatdırmaq çox böyük əmək və məsuliyyət tələb edir. Çox yaxşı ki, Mustafa müəllimin yazıçı təxəyyüllü vətəndaşlıq təxəyyülündən doğur. Yazıçı var təkcə yazıçıdır, yazıçı var ki, həm də vətəndaşdır. Mustafa Çəmənli həm vətəndaşdır, həm də böyük yazıçıdır”.

Şair Ramiz Məmmədzadə də roman haqqında öz fikirlərini bölüşüb. Əsərdə yazıçı dilinin olduqca axıcılığını vurğulayan şair, fəsillərin başlığında klassik və müasir şairlərdən sitatlar gətirməsinin romanı daha da oxunaqlı olmasına sövq etdiyini qeyd edib:” Kitabın adı papaq başa yaraşan kimi yaraşmalıdır. Bu baxımdan da Mustafa Çəmənlini təbrik etmək olar. O çox maraqlı ad seçib romana, çünki II Şah İsmayıla həqiqətən də əzrayıl yox, ölüm mələyi adı daha çox yaraşır. Kitabı oxuyanda görəcəksiniz ki, orda nə qədər yazıçı zəhməti var. Romanda yazıçının təsvir etdiyi Pərixanım xanım qadın obrazı kimi “Qılınc və Qələm” romanındakı Qətibə obrazından sonra ən çox yadımda qalan qadın obrazı oldu. Romanda hər fəslin başlığında klassik şairlərdən tutmuş müasir şairlərə qədər sitatlar gətirilməsi romanın oxunaqlı olmasını təmin edir, dəlalət edir”.

Tədbirdə həmçinin çıxış edən şair Musa Ələkbərli, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, əməkdar müəllim Səlim Əzimov, professor Habil Qurbanov, “MHS” nəşriyyat poliqrafiya şirkətinin nəşriyyat direktoru Vasif Qurbanzadə, jurnalist Ceyhun Musaoğlu çıxışlarında Mustafa Çəmənli yaradıcılığındakı nüanslara toxunub, “Ölüm mələyi” romanını tariximizi bizə ətraflı şəkildə çatdırmaq baxımından olduqca əhəmiyyətli bir ədəbiyyat nümunəsi kimi qiymətləndiriblər. Tədbirin sonunda Mustafa Çəmənli kitabın nəşrini həyata keçirtdiyi üçün “MHS” nəşriyyat və poliqrafiya şirkətinə və tədbir iştirakçılarına öz təşəkkürünü bildirib.

**GÜNEL**

# Məşhur "Santa-Barbara"nın qəhrəmanı ADMİU-da



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) yeni dərs ilində dəvət etdiyi xarici qonaqla tələbə və müəllim heyətini görüşdürdü. Amerikanın görkəmli aktyoru və rejissoru Leyn Devis də Bakıya yaradıcılıq səfərində ilk olaraq 90 illik tarixə malik bu elm — sənət ocağını ziyarət etməyi lazım bilmişdi. Tələbə aktyor, rejissor və kinoşünasların alqışlarının müşayiəti ilə Elmi şura zalına daxil olan xarici qonağın keçirdiyi xoş hisslər üzündən də oxunurdu.

Dünyaca məşhur “Santa- Barbara” teleserialında yaratdığı Meyson obrazı ilə məşhurlaşan aktyor bu gün həm də rejissor kimi fəaliyyət göstərir. Zaman — zaman Azərbaycanın adlı-sanlı sənət xadimlərinin, pedaqoqların ustad dərslərinin şahidi olmuş tələbələr üçün Leyn Devisin nə deyəcəyi, nə göstərəcəyi maraqlı idi. Hörmətli qonağın da öz növbəsində maraq dairəsi vardı: ADMİU-nun tarixi, tələbə kontingenti, ixtisas yönümü və sairə... Bütün bunlar haqqında ADMİU-nun prorektoru, professor Rafiq Sadıxov müfəssəl məlumat verdikdən sonra meydan Leyn Devisə verildi. Amerika sayağı təbiilik, qeyri rəsmiyyətçilik və böyük bir səmimiyyətlə söhbətə başlayan rejissor asanlıqla auditoriyanı ələ aldı və qısa vaxt ərzində yaradıcı atmosfer yarada bildi. Aktyorun səhnəyə, kamera qarşısında çəkilişə gələnəcən kecirdiyi hisslər, növbəti epizoda hazırlığı, həyəcanları barədə söylədikləri, səs, nəfəs, diofraqma təmrinləri barədə məsləhətləri tələbələr tərəfindən böyük maraqla qarşılandı. Hamının üzündə razılıq ifadəsi vardı—ustad dərsi uğurla alınmışdı. Qonaqsa ikiqat məmnun görünürdü-söylədikləri yerinə düşmüş, dəqiq ünvanına çatmışdı.

Sonda ADMİU-nun intizam və humanitar işlər üzrə prorektoru, professor Gülşən Kəngərli universitetin tələbə və müəllim heyəti ilə xatirə şəkli çəkdirməyə hazırlaşan rejissora onun həyatı, ailəsi, sevimli övladları barədə danışanda L. Devis bu məhrəmliyə görə son dərəcə mütəəssir olub universitet kollektivinə, o cümlədən diqqətcil, qonaqpərvər Azərbaycan xalqına minnətdarlığını bildirdi.

**İntiqam**

## Ağdamın Quzanlı qəsəbəsində “Pazırıq” türk xalçasının 2500 illiyi qeyd olunub

Ağdam rayonunun Quzanlı qəsəbəsində “Pazırıq” türk xalçasının 2500 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Rayonun icra hakimiyyətindən verilən məlumata görə, tədbirdə çıxış edənlər “Pazırıq” türk xalçalarının tarixi keçmişi, xüsusiyyətləri ilə bağlı ətraflı məlumat veriblər: “Altayda Pazırıq kurqanlarından tapılmış 4,5x6,5 metr ölçülü qırmızı rəngli keçə üzərində incə yun ipindən toxunan bu xalı hazırda Sankt-Peterburq şəhərindəki dünya şöhrətli Ermitaj muzeyində saxlanır. Dünyanın ən qədim xalısı olan bu xalça Altayda dəfn olunmuş türk xaqanının yas mərasimi üçün Qarabağda, bu yerlərin qədim sakinləri olan saqlar tərəfindən toxunub. Xalının kurqanın altında salamat qalmasının səbəbi vaxtilə yuxarıda açılmış bir oyuqdan məzarın dibinə sızan suyun buz bağlaması və xalının buzun içində qalması olub. “Pazırıq” xalısında iç-içə bir neçə çərçivəyə bölünmüş, birincidə qrifonlar, ikincidə atlılar, üçüncüdə sığırlar (maral), dördüncüdə hun çiçəyi şəklində simvollar təsvir olunub. Xalının orta çərçivəsindəki 24 xana 24 oğuz boyunun anlamını verir”. Çıxış edənlər bildiriblər ki, 2500 illik tarixi olan bu xalçanı keçmiş sovetlər dövründə “erməni xalçası” kimi təqdim etmək istəyənlərə Azərbaycan alimləri ilə yanaşı, bəzi rus alimləri də etiraz edərək xalının türkdilli xalqlara məxsusluğu etiraf olunub: “Bütün bunlara baxmayaraq, ötən əsrin 90-cı illərindən başlayaraq dünya erməni diasporu həmin xalçanın Qarabağda yaşayan ermənilər tərəfindən toxunması haqqında fikir formalaşdırmağa çalışır, simpoziumlar keçirir, kitablar nəşr etdirirlər. Lakin vətənsevər Azərbaycan ziyalıları həmin xalçanın fotosurətini əldə edərək “Azər-İlmə” xalçaçılıq şirkətində onu eyni formada toxutdurmağa nail olub, bu tarixi incidəki ornamentlərin birbaşa qədim türk adət-ənənələri ilə bağlı olduğunu qeyd-şərtsiz sübut edən faktlar ortaya qoyublar”.

Tədbirdə qeyd olunub ki, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Pazırıq” xalçasına həsr edilmiş kitab-dərgi nəşr edilib, “Səs TV” onlayn televiziyasında veriliş hazırlanıb, Beynəlxalq Mətbuat Mərkəzində dəyirmi masa keçirilib. Gələn il növbəti yubiley tədbirinin xalçanın toxunduğu Bərdə şəhərində keçirilməsi nəzərdə tutulub.

**GÜNEL**

## *YUNESKO-nun baş direktoru:* “Nizaminin yubileyində iştirakdan böyük şərəf duyuruq”

“Dahi şair və mütəfəkkir Nizami Gəncəvi ümumbəşəri dəyərə malik bir alimdir. Bu il onun 870 illik yubileyinin keçirilməsi mədəniyyətlərarası dialoqa bir çağırışdır və YUNESKO bu yubileydə iştirakdan çox böyük şərəf hissi duyur”.

Mədəniyyət və Turizm Nazirliyindən APA-ya verilən məlumata görə, bu cümlələr YUNESKO-nun baş direktoru İrina Bokovanın Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə yaydığı bəyanatda qeyd olunub.

Bəyanatda o da bildirilir ki, Nizami yaradıcılığı bəşəriyyətin müxtəlifliyini, bilik və kamillik yolu ilə zamanın axarını dəyişməyə çalışmasını təbliğ edir, ləyaqətli, ədalətli və ahəngdar bir cəmiyyətə səsləyir: “Onun əsərləri mədəniyyətin xalqlar arasında körpü salmasını və ictimai şüuru təcəssüm etdirir. Hələ o dövrlərdə Gəncə şəhərinin kitabxanalarında, Nizami İslam dünyasının hər bir tərəfindən olan əsərləri — tərcümələri, qədim əsərlərin təfsirləri, müxtəlif dillərdə olan poemalar və elmi işləri əldə edə bilirdi. XII əsrdə olduğu kimi, bu günümüzdə də bu mədəni müxtəliflik bir imkan kimi hesab oluna bilər. Mədəniyyətlərin yaxınlaşmasına öz töhfəmizi vermək üçün mədəni, eyni zamanda mövcud bilik mübadiləsini genişləndirməklə birgə işləyə bilərik.

Heç şübhəsiz Nizaminin ədəbi irsi Azərbaycan, Mərkəzi Asiya və digər ölkələrdə insanların həyatına çox böyük təsir göstərib. “Ruhumu sevgiyə qərq edin” humanist çağırışı yaşadığımız qeyri-müəyyən zaman üçün bir ilhamdır. Bu çağırış, “sülh müdafiəsi xanımların və kişilərin şüurlarında qurulmalıdır” kimi YUNESKO-nun yaradılma konsepsiyasını özündə əks etdirir. Bu xüsusda, Nizami irsinin və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı Azərbaycanın dövlət qurumlarının və Gəncə şəhərinin səylərini ürəkdən alqışlayıram”.

## Çexiyada Nizami Gəncəvinin poemalarının qədim nüsxələri tapılıb

Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri Möhsün Nağısoylu sentyabrın 17-dən 27-dək Çexiyada elmi ezamiyyətdə olub və Çexiya Milli Kitabxanasında saxlanılan Azərbaycan əlyazmaları ilə tanışlıq imkanı əldə edib.

İnstitutun direktor əvəzi Paşa Kərimovun APA-ya verdiyi məlumata görə, kitabxanada fars dilində olan 150 əlyazmadan 20-nin Azərbaycan müəlliflərinin əsərləri olduğu aşkarlanıb: “Kitabxanadakı Azərbaycan əlyazmaları arasında Nizami Gəncəvinin “Xəmsə”sinin ayrı-ayrı poemaları xüsusi yer tutur. Həmin əlyazmalardan 3-ü “Xəmsə”, digərləri isə “Xosrov və Şirin”, “Yeddi gözəl” və “İsgəndərnamə” poemalarının əlyazmalarıdır. Nizami əlyazmalarının ən qədimi “Xəmsə”nin 4-cü poeması olan “Yeddi gözəl”in 1389-cu ildə köçürülmüş əlyazmasıdır. “İsgəndərnamə”nin bir əlyazması da XIV yüzilliyə aiddir. “Xəmsə”nin bir əlyazması isə bədii tərtibatı ilə diqqəti cəlb edir. 1672-ci ildə köçürülən bu əlyazmaya 62 rəngli miniatür çəkilib. “Xəmsə”nin burada saxlanılan ən qədim əlyazması isə 16-cı əsrə aiddir. Çexiyada Azərbaycan klassiklərindən Xaqani Şirvani, Şah Qasim Ənvar və Saib Təbrizinin əlyazmaları da saxlanılır”.

P. Kərimov deyib ki, Kitabxanadakı türkcə əlyazmaların sayı 300-dən çoxdur: “Burada İmadəddin Nəsimi və Məhəməd Füzulinin “Divan”larının XVII-XVIII əsrə aid nüsxələri də saxlanılır. Şərqşünaslıq İnstitutunun kitabxanalarında isə 200-ə yaxın Şərq əlyazması var. Onların arasında Nizami Gəncəvinin “Xəmsə”si və Qövsi Təbrizinin “Divan”ı xüsusilə əhəmiyyətlidir”.

# Misralarda çırpınan həsrət

Poeziyanın, habelə digər ədəbi janrların obyektini, tərənnüm və təsvir vasitələrini müəyyənləşdirən həyatdır, zamandır. Xatırladılmasına azacıq belə ehtiyac duymuram ki, hər mərhələnin ədəbi məhsullarının rəng və boyasını, təsvir və tərənnüm edilən mövzuya qələm sahibinin bələdliyi həlledici rol oynayır.

Etiraf edim ki, məni bu məlum ədəbi həqiqətlər barədə söz açmağa sövq edən şair Zakir Ağdamlının “İlahi, dağlara qovuşdur məni” adlı şeirlər toplusu oldu. Hər şeydən əvvəl müasir cəmiyyətə onun strukturunun özülünü təşkil edən ayrı-ayrı nümayəndələrinin münasibətini şairin mövqeyi kimi qiymətləndirərdim. Onun “Adam var” ünvanlı şeiri ilə tanışlıq bir söz sənəti yolçusu kimi müşahidələrinin daxili aləmləri oxucuda yetərincə təsəvvür yaradır:

**Adam var toyda da ürəkdən gülməz,**
**Adam var sancmasa, dayana bilməz.**
**Adam var əslini, kökünü danar,**
**Adam var gədədi özün bəy sanar...**
**Adam var şöhrətçün alışıb yanar,**
**Adam var pul versən, qibləsin danar.**

Bir şair kimi Zakirin hadisələrə münasibətini vətəninin, xalqının yaşadığı günlərin məntiqi müəyyənləşdirib. İşin orası da bir həqiqətdir ki, o, bu hadisələrin sadəcə müşahidəçisi yox, işğalın, vətəninə təcavüzün, nankor erməni nəməkbeharamların törətdikləri bəşər tarixində misligörünməmiş təcavüzün şahidi olub. Orasını xatırlatmağa zərurət var ki, o, yaradıcılıq meydanına bir təcrübəli həkim kimi gəlib. İnsanların məruz qaldıqları haqsızlıqların törətdiyi ayrı-acılar bir təbib kimi də ona yaxşı tanışdır. Xalq şairi mərhum Məmməd Araz Zakir Ağdamlının yaradıcılığına xüsusi nüanslar gətirən bu keyfiyyət barədə qabil bir sənətkar həssaslığı ilə yazmışdı:

“Zakir Ağdamlı həkimdir, həkimlik sənəti insana poeziya sənəti qədər yaxındır. Həkim də insan qəlbinə “boylanır”, şair də. Poetik söz də dərman olur, qeyri-poetik həkim məsləhəti də”.

Kitabda dərc edilən şeirlər aşağıdakı bölmələrdə təqdim edilib. “Əzəldən mənimçün sirdi bu dünya”, “Qəlbi dağlı bülbülüyəm o dağların, bu dağların”, “Nəğməli bülbüldün, ətirli güldün”, “Rəsul Allahından istəsə əgər- daşın üstündə də çiçək bitirər”, “Adlı ünvanlı şeirlər”, “Torpaq nisgili, yurd həsrəti”, “Gələcəyəm, Qarabağım”. Təbii ki, şeirlərin, poetik nəğmələrin əsas məzmunları bu ünvanlarda ifadələrini tapmışlar. Həmin bölmələrin məzmun və mahiyyətləri haqqında müəyyən rəyə gəlmək üçün onlarda dərc edilmiş şeirlər bol material verir. Zakir Ağdamlının xatirələr aləmi çox zəngindir. Hiss olunur ki, həyatında tanış olduğu adamlar öz qabiliyyətləri, sənətləri, vətənə və xalqa münasibətləri ilə onun xatirələr dəftərinə silinməz səhifələr yazıb. Şairin qədirdanlığı elə bir ehtiva qabiliyyətinə malikdir ki, onların poetik dillə təqdimləri oxucularının da köksündə hərarətli ocaq qalayır. Xatirələrində diqqət çəkən ümdə cəhətlərdən biri ondan ibarətdir ki, o, bu qəbil yazılarında yalnız haqqında söhbət açdığı şəxsdən deyil, onun simasında cəmiyyət üçün, deməli oxucu üçün də maraq doğuran hadisələrdən, insani keyfiyyətlərdən söz açır.

Zakir həm də poetik qələm sahibi, həm də müqəddəslərə inamı olan şairdir. Həyatında çox çətin sınaqlar, imtahanlar belə onun nə yaradıcılığını səngidib, nə də inamına azacıq belə təsir göstərib. Şüurunda hakim olan dini və dünyəvi baxışları olduqca saf və təqdirəlayiq təsir bağışlayır. Onun “İlahi, dağlara qovuşdur məni” adlı şeir toplusu həm mövzu, həm sənətkarlıq, həm də ideoloji baxımdan geniş və dərin təhlilə layiqdir. Mən şairin doğma yurduna vurğunluğunu, onun qüdsiyyətinə inamını nəzərə alaraq topluda dərc olunmuş “Mənim” ünvanlı şeirindən bir bəndi oxuculara çatdırmaqla yazıma son qoymaq istərdim. Yeni əsərlərinin intizarında olacağam, həmvətənim Zakir Ağdamlı!

**O göy gurultusu mənim ahımdır,**
**Hər an “şimşək çaxır” üzümdə mənim.**
**AĞDAM qibləgahım, səcdəgahımdır,**
**MƏKKƏM, MƏDİNƏMDİ gözümdə mənim.**

**Sabir Həbiboğlu**

# *Ağasəlim Mircavadov:* "İnter"lə oyunda "Neftçi"dən xal gözləyirəm"

"XƏZƏR LƏNKƏRAN"IN DAXİLİNDƏ NƏSƏ VAR Kİ, KOMANDA UĞURSUZ ÇIXIŞ EDİR"
"MƏN BİLMİRƏM, "RƏVAN" VƏ "QƏBƏLƏ" RƏHBƏRLİYİ NƏ İSTƏYİR"

**Supersport.Az saytı Azərbaycanın əməkdar məşqçisi Ağasəlim Mircavadovdan müsahibə alıb.**

***— Ağasəlim müəllim, əvvəlcə 7-ci tur haqda danışaq. "Xəzər Lənkəran" ardıcıl 3-cü məğlubiyyətini aldı. Öncə "Neftçi"yə qənim kəsilən "Sumqayıt" bu dəfə "Bakı"nı şoka saldı. Bu nəticələri gözlənilməz hesab edirsinizmi?***

— Bəli. "Bakı"nın "Sumqayıt"la oyununa canlı baxdım. Paytaxt klubu yaxşı halda deyil. Sumqayıt komandası rəqibindən daha canlı, üstün futbol nümayiş etdirdi. "Bakı"da nə baş verir, rəhbərlik, məşqçilər bilər. Bir məqamı bildirim ki, "Sumqayıt" təsadüfən udmadı. Gəlin, bunu açıq danışaq. Tovuzda "Xəzər Lənkəran"ın "Turan"la oyununu görməmişəm. Ola bilər ki, ilk hissənin əvvəlində müdafiəçi Ruslan Abışovun meydandan çıxarılması öz təsirini göstərə bilər. Ümumiyyətlə, Tovuzda oynamaq həmişə ağır olub. "Turan" futbolçuları çalışqan və əzmkarlıqları ilə seçilirlər. Buna görə də Tovuza səfər edən komanda mükəmməl hazırlaşmalıdır. İndi elə vəziyyət yaranıb ki, ölkənin iddialı klublarından ikisi — "Bakı" və "Xəzər Lənkəran" autsayderlərə çevriliblər.

***— "Xəzər Lənkəran" son — 12-ci, "Bakı" 10-cu pillədə qərarlaşıb. Lənkəran klubunun tarixində axırıncı yerdə olmasına rast gəlmisinizmi?***

— Xeyr, siz düz deyirsiniz. Ölkəmizdə dünya çempionatının təşkili ilə əlaqədar "Xəzər Lənkəran" bəzi oyunları öz meydanında keçirmədiyindən bunun acısını görür. Ancaq yenə də Yunis müəllimə inanıram. Ümid edirəm ki, komandası yaxşı hazırlaşacaq və AZAL-la oyunda nəsə edə biləcək.

***— Yunis Hüseynov iki dəfə istefa versə də, rəhbərlik qəbul etməyib. Klubun toplantısında baş məşqçi yox, köməkçiləri yola salınıb. Sizcə, bu nə dərəcədə doğru addımdır?***

— Bu haqda məlumatı sizdən eşidirəm. Yenə deyirəm ki, Yunis Hüseynova inanmaq və vaxt lazımdır. Adətən komanda uğursuz çıxış edəndə başda baş məşqçi olmaqla köməkçiləri də məsuliyyət daşıyır. Ancaq rəhbərlik özü bilər.

***— "Xəzər Lənkəran"ın uğursuzluq zolağında olmasının səbəbi nədir?***

— Komandanın məğlub olduğu oyunlara baxmamışam, fraqmentləri izləmişəm. Bu, heç nə vermir. Oyuna baxmaq və axırda olmaq ayrıdır. Görünür, klubdaxilində nəsə var ki, komanda uğursuz çıxış edir. Şərait və maddi baxımdan heç bir narazılıq ola bilməz. Mən çalışdığım dövrdə bu cəhətdən nəsə problem olmayıb. Amma indi deyə bilmərəm ki, vəziyyət necədir.

***— Sizcə, komandanın bu durumda olmasını transferlərin gecikməsi, gənc qapıçıya üstünlük verilməsi və futbolçuların qəsdən oynamaması ilə bağlamaq olarmı?***

— "Turan"la qarşılaşmada "Xəzər Lənkəran"ın qapısında Kamal Bayramov dayanıb, gənc futbolçu Kazım Kazımlıya da oynamaq imkanı verilib. Oyuna baxa bilmədiyimdən deyə bilmərəm necə, oynayıblar. Kazımla mən müqavilə bağlamışdım. Yerli futbolçulara da oynamağa şərait yaradılmalıdır. Transferə gəlincə, vaxtı qurtarıb, qışa kimi oynamaq lazımdır. Yeni oyunçularla işləmək vacibdir.

***— Kamran Ağayev kənarlaşdırılması öz sözünü deyir.***

— Bu məsələ ilə bağlı qərar klubun daxili işidir. Kamran da komandasına hörmətlə yanaşmalıdır. Müqaviləsi varsa, bunun sayəsində işləməlidir, qurtardı getdi. İndi onu harasa göndərirlər, bu başqa məsələdir. Kontrakt mühüm amillərdən biridir. "Zenit" klubunda bununla bağlı hadisə oldu. Denisov üsyan qaldırdı ki, maaşı ikiqat artırılsın. Bu futbolçunun 2015-ci ilə kimi müqaviləsi var. Klub bəyan etdi ki, müqaviləsi var, hay-küy salmasın. Futbolçu oynamayacağını dedi, komanda isə onu əvəzedici heyətə göndərdi. Bu, qanuni addımdır, burda heç bir problem yoxdur. Orada oynamasa, cərimə edəcəklər. Bizdə müqaviləyə yüngül baxsalar da, bu, vacibdir.

***— Keçmiş komandanıza nə məsləhət verərdiniz?***

— Bilmirəm, komandanın daxilində nə var. Az-çox nəsə bilsəm, fikir bildirmək olar. "Xəzər Lənkəran"a ən əsası öz oyununu oynamaq, qələbə lazımdır.

***— "Xəzər Lənkəran"ın futbolçusu Elnur Allahverdiyev millimizin həm portuqaliyalılarla oyunu, həm də "Turan"la qarşılaşmada qeyri-etik hərəkət edib. Bu haqda nə deyə bilərsiniz?***

— Komanda daxilində nizam-intizam qaydaları olur. Mənim vaxtımda cərimə toplusu düzəltmişdim, bütün futbolçular imza atmışdılar. Nizam-intizama, hətta sarı, qırmızı vərəqə, gecikmə və pis oynamağa görə də cəza vardı. Qeyri-etik hərəkət edən futbolçular cərimə olunmalıdır. Ancaq klub nə edəcək, özü bilər.



***— "Simurq"un lider olması qanunauyğunluqdurmu?***

— "Simurq"un birinci pillədə olması o demək deyil ki, bu komanda hamıdan əla oynayır. Zaqatala təmsilçisi uğur qazanmaq üçün çalışır, öz oyununu göstərir. "Simurq"un lider olması, iddialı klublardan "Neftçi", "Qarabağ", "Bakı", "Xəzər Lənkəran" və "İnter"in sabit oynamamasından irəli gəlir. Deyə bilmərəm ki, Zaqatala klubu birinci yeri saxlayıb-saxlamayacaq. Bu komandanın ilk məqsədi altılığa düşməkdir və bunun üçün böyük şansı — 15 xalı var.

***— Bəzi komandaların sabit oynamamasını nə ilə əlaqələndirərdiniz?***

— Hər klubun öz problemi var. Faktı biləndən sonra konkret nəsə demək olar.

***— "Rəvan"da məşqçiləri əlcək kimi dəyişirlər. "Qəbələ" də məşqçisini yola saldı. "Qarabağ"da baş məşqçi Qurban Qurbanov istefa versə də saxladılar. Bu məsələlərə necə baxırsınız?***

— (Gülür) Necə baxmalıyam? "Rəvan"dan baş açmaq olmur ki, nə istəyirlər. Komanda nəyə görə oynayır. Əsas məsələ budur. İndi də "Rəvan" "Kəpəz"ə uduzdu. Baş məşqçi istefa verməyəcək ki. Yeni çalışdırıcını bir həftə əvvəl dəvət ediblər. Sözümün canı odur ki, hər klubda məqsəd lazımdır. Buna nail olmaq üçün yollar var. Məqsəd olmasa, oynayıb hardasa qərarlaşmağı düşündünsə, bu halda oynamağa nə lüzum var ki? İndi "Rəvan" belə komandadır.

***— Bu, həmin komandanın rəhbərliyində qeyri-peşəkarların olmasından xəbər vermirmi?***

— Mən onlara hörmətlə yanaşıram, deyə bilmərəm ki, qeyri-peşəkardırlar. Bunu siz ayırd edin, məndən yaxşı bilirsiniz. Komanda özlərinindir, nə istəyirlər edirlər. Amma bu da olmaz axı.

***— "Qarabağ" və "Qəbələ"də baş verənlərə də toxunardınız.***

— "Qarabağ" sabit oynamır. "Qəbələ"yə gəlincə, çoxdan baş məşqçi istefaya göndərilməli idi. Burda bir iş var ki, məşqçinin səviyyəsi oyunçulardan aşağıdırsa, o, orda işləməməlidir. "Qəbələ" klubunda belə idi.

***— Şübhəsiz ki, bu, rəhbərliyin seçiminin səhv olmasından irəli gəlir...***

— Rəhbərlik bunu özü bilər. Mən bütün klub başçılarına təşəkkürümü bildirirəm ki, futbola sərmayə qoyurlar, qərarlarına hörmət edirəm.

"Qarabağ"a gəldikdə, son 2 oyunda 4 xal toplayıb: 1 qələbə lazım idi ki, uşaqlar, məşqçi özünə gəlsin. Bu, çox vacib məqamdır. Keyfiyyətli işləmək lazımdır ki, uğur qazanılsın.

***— Siz necə, çalışmaq istəmirsiniz?***

— İş olsun ki, işləyək də. Hələlik təklif yoxdur. İşsiz olduğum üçün həddən artıq darıxıram.

***— Milli çempionatın səviyyəsi xoşunuza gəlirmi?***

— Xeyr. Ölkəmizdə dünya çempionatı keçirildiyindən stadionlar məşğuldur, təxirə salınan oyunlar var, bu da labüddür. Ancaq istərdim ki, təqvim ağıllı hazırlansın və buna uyğun işlər aparılsın. İki həftə fasilə olanda bunun məşqçilərə, komandaya mənfi təsiri və futbolçuları oyunlara kökləmək çox ağır olur. Başıma belə hadisələr çox gəldiyi üçün belə fikirdəyəm. Təqvim düz olanda — Avropa yarışlarının oyunları, milli komandanın hazırlıq prosesi əvvəlcədən nəzərə alındıqda hər şey qaydasında gedir.

***— Bizdə kişilər futbolu əməlli başlı oynaya bilmir, qaldı ki, qızlar ola. Nəyə lazımdır ki, dünya çempionatında qızlardan ibarət bərbad Azərbaycan yığması iştirak edir və Nigeriyaya 0:11 uduzur. Niyə, AFFA ölkəni biabır etməlidir?***

— Razıyam ki, bu hesab biabırçılıqdır, çox ağırdır.

***— Foqts "Neftçi"nin Avroliqada çıxışı zamanı təqvimin təxirə salınmasına qarşı çıxmışdı. Siz, nə fikirdəsiniz?***

— Hər məşqçinin öz baxışı var. Mənim fikrim başqadır. İlk növbədə Avropa Liqasında oynayan komandanın azı 24-25 futbolçusu olmalıdır ki, həm milli çempionat, həm də qitə yarışında mübarizə aparmaq çətinlik yaratmasın. İkincisi, çox məşqçilər formada olmayan futbolçuları oynatmaqla problemi aradan qaldırırlar. Bu da başadüşüləndir və mənim də belə etdiyim vaxtlar olub. "Neftçi" istəyibsə oyunları təxirə düşsün, özləri bilər, onların işinə qarışmıram.

***— "Neftçi"dən fərqli olaraq "İnter" oyunlarını təxirə salmır...***

— Xaricdə bu baxımdan fərqlilik var. Ona görə ki, orada hər klubda 25-30 oyunçu olur.

***— Bizdə pis öyrəşiblər, eləmi?***

— Pis niyə? Öyrəşmək deyəndə ki. İlk növbədə meydançaları yaxşı vəziyyətə gətirmək lazımdır. Süni örtükdə oynayanda bədən, ayaqlar, əzələlər yorulur. İngiltərə, İspaniya və İtaliyada meydançalar Qəbələdəki kimidir. Qəbələdə olan meydança ölkəmizin heç bir yerində yoxdur. Bütün meydançalar belə olmalıdır və bu yerdə həftədə bir neçə dəfə oynamaq olar. Ancaq kələ-kötür, süni örtüklü meydançalarda oyun keçirəndə çox əziyyət olur, tez zədələnmə baş verir və bu da gec sağalır.

***— Qəbələdən söz düşmüşkən bu bölgənin komandasına yeni baş məşqçi vəzifəsinə komandanı 4 mövsüm çalışdırmış Ramiz Məmmədov gətirildi. Halbuki bundan əvvəlki dövrlərdə klub bu məşqçi ilə heç bir uğur qazanmayıb. Sizcə, bu geriyə addım deyilmi?***

— Allah xeyir versin, təbrik edirəm. Mən bilmirəm, "Qəbələ" rəhbərliyi nə istəyir.

***— Həm çempionluğu, həm də kuboku istəyir.***

— Əlbəttə ki, bu ağır məsələdir. Ramiz Məmmədov klubda idman direktoru işləyib. Qəbələnin havasını bilir, rəhbərliyini də tanıyır. O, çalışacaq ki, işinin öhdəsindən gəlsin, ona uğurlar arzulayıram.

***— "İnter"lə qarşılaşmada "Neftçi"dən nə gözləyirsiniz və hansı məsləhətiniz var?***

— "Neftçi"dən yaxşı oyun və xal gözləyirəm. "Neftçi" SSRİ dövründə güclü komandalara qarşı yaxşı oynayıb. İndi də belə olacağını düşünürəm. Komandanın Avropa Liqasına düşməsi əladır. İndidən İtaliya klubunun Azərbaycana gətirilməsi sevinclə qarşılanır. "Neftçi" heç nə itirmir. Ancaq bu o demək deyil ki, təmsilçimiz əlini aşağı salmalıdır. "Neftçi" həm Avropa Liqası, həm də milli çempionatda yaxşı çıxış etməlidir. "İnter"in oyununa baxmışam və əvvəlki oyunlarından əsər-əlamət yoxdur. Məsləhətə gəlincə, istəyəndə verərlər. Ən əsası "Neftçi" öz oyununu göstərməlidir. "Neftçi" "Partizan"la oyundakından bir qədər də güclü "İnter"ə qarşı oyun nümayiş etdirsə, yaxşı olar.

**Anar CƏFƏRSOY**

## "Azərsun Holdinq" uşaqlar arasında beynəlxalq şahmat turnirinə dəstək verdi




Gənclərin 21-30 sentyabr tarixləri arasında keçirilən beyəlxalq şahmat turniri yekunlaşdı. "Baku Open-2012" Beynəlxalq şahmat turnirində 11 ölkədən 119 şahmatçısı iştirak etdi. Qeyd edək ki, qalib şahmatçılarımız Azərbaycanın gənclər və idman nazirinin rəhbərliyi ilə 2016-cı il olimpiadasının keçirilməsi hüququnu İstanbuldan Bakıya gətiriblər. Azərbaycan Gənclər və İdman Nazirliyi və ölkənin Şahmat Federasiyası tərəfindən təşkil olunan uşaqlar üçün beynəlxalq şahmat turnirinə baş sponsorluğu "Azərsun Holdinq" etti. 12 yaşa qədər 96 şahmatçının iştirak etdiyi bu turnirin 21 qalibi "Azərsun Holdinq" tərəfindən mükafatlandırıldı.

## Foqts millinin heyətini açıqladı

2014-cü ildə Braziliyada təşkil olunacaq dünya çempionatının seçmə mərhələsi çərçivəsində oktyabrın 16-da, Moskva şəhərindəki Lujniki stadionunda keçiriləcək Rusiya — Azərbaycan oyununa hazırlıq məqsədilə oktyabrın 5-dən 13-dək Bakıda Azərbaycan milli komandasının təlim-məşq toplanışı təşkil olunacaq.

AFFA-nın rəsmi saytına istinadən toplanışa dəvət olunmuş futbolçuların siyahısını təqdim edirik:

**Kamran Ağayev — "Xəzər Lənkəran"**
**Anar Nəzirov — "Qəbələ"**
**Səlahət Ağayev — "Sumqayıt"**
**Rəşad Sadıqov — "Qarabağ"**
**Volodimir Levin — "İnter"**
**Bədavi Hüseynov — "Qarabağ"**
**Usim Nduka — AZAL**
**Elnur Allahverdiyev — "Xəzər Lənkəran"**
**Maksim Medvedev — "Qarabağ"**
**Əli Gökdemir — "Hannover 96" (Almaniya)**
**Ruslan Əmircanov — "İnter"**
**Aqil Nəbiyev — AZAL**
**Ruslan Abışov — "Xəzər Lənkəran"**
**Elhad Nəziri — "Milsami" (Moldova)**
**Murad Ağayev — "Sumqayıt"**
**Aleksandr Çertoqanov — "Qəbələ"**
**Rahid Əmirquliyev — "Xəzər Lənkəran"**
**Mahir Şükürov — "Neftçi"**
**Cavid Hüseynov — "Adanademirspor" (Türkiyə)**
**Elvin Məmmədov — "Bakı"**
**Əfran İsmayılov — "Qarabağ"**
**Nizami Hacıyev — "İnter"**
**Cavid İmamverdiyev — "Neftçi"**
**Branimir Subaşiç — "Xəzər Lənkəran"**
**Vüqar Nadirov — "Qarabağ"**
**Vaqif Cavadov — "Qarabağ"**
**Rauf Əliyev — "Qarabağ"**
**Cihan Özkara — "Kayseri Erciyesspor" (Türkiyə)**

Qeyd edək ki, Elhad Nəziri oktyabrın 6-dan, Əli Gökdemir, Cavid Hüseynov və Cihan Özkara isə oktyabrın 8-dən komandanın heyətinə qoşulacaq.

## Premyer Liqada VIII turun oyunlarının başlama saatı açıqlandı

Azərbaycan Premyer Liqasında VIII turun oyunlarının vaxtı və məkanı açıqlanıb.

PFL-in saytının yaydığı məlumata görə, tura oktyabrın 3-də start veriləcək:

3 oktyabr (çərşənbə)
AZAL — "Xəzər Lənkəran"
AZAL Arena, 18:30
4 oktyabr (cümə axşamı)
"Kəpəz" — "Qarabağ"
Gəncə şəhər stadionu, 16:00
"Simurq" — "Sumqayıt"
Zaqatala şəhər stadionu, 18:00
"Bakı" — "Qəbələ"
"Bakı" FK-nın təlim-məşq bazasının stadionu, 16:00
"Rəvan" — "İnter"
Bayıl Arena, 19:00

## "Neftçi" – "İnter" matçının hakimləri açıqlandı



UEFA Avropa Liqasının qrup mərhələsi çərçivəsində oktyabrın 4-də, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Neftçi" — "İnter" (İtaliya) oyununun hakimləri açıqlanıb.

Saat 21:00-da başlayacaq oyun niderlandlı hakimlərə tapşırılıb.

Baş hakim: Bernie Raymond (Kevin) Blom

Baş hakimin köməkçiləri: Norbertus Josephus C. (Berry) Simons, Davie DFJG Goossens

Dördüncü hakim: B.J.A.C. (Bas) Van Dongen

Baş hakimin əlavə köməkçiləri: Danny Desmond Makkelie, Tom Van Sichem

Hakim-inspektor: Miroslav Liba (Çexiya)

UEFA nümayəndəsi: Kuanysh Kanapyanov (Qazaxıstan)


## Azərbaycan Respublikası Təhsil Nazirliyi Qərb Universiteti

2012-ci il üçün Universitetin fəlsəfə doktoru proqramı üzrə doktoranturasına və dissertanturaya aşağıdakı ixtisaslar üzrə qəbul elan edir.

### I. Fəlsəfə doktoru proqramı üzrə:

| № | İxtisaslar | İxtisasın şifri | Ödənişli əsaslarla | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əyani | Qiyabi |
| 1. | Dünya iqtisadiyyatı | 5310.01 | 3 | 1 | 2 |
| 2. | Dünya ədəbiyyatı | 5718.01 | 4 | 2 | 2 |
| 3. | Beynəlxalq münasibətlər | 5901.01 | 4 | 1 | 3 |
| 4. | Sistemli analiz, idarəetmə və informasiya işlənməsi | 3338.01 | 1 | - | 1 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 129 N:li "01" iyul 2011-ci il tarixli qərarına uyğun olaraq Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.**

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi təhsil müddəti 4 ildir.**

**Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.**

**Doktoranturaya sənədlər 17 sentyabr 2012-ci il tarixindən 16 oktyabr 2012-ci il tarixinə qədər qəbul edilir.**

**Qəbul imtahanları 22 oktyabr 2012-ci il tarixindən 21 noyabr 2012-ci il tarixinə keçiriləcək.**

### II. Fəlsəfə doktoru proqramı üzrə dissertantların təhkimolunma planı:

| № | İxtisaslar | İxtisasın şifri | Ödənişli əsaslarla |
|---|---|---|---|
| 1. | Dünya iqtisadiyyatı | 5310.01 | 2 |
| 2. | Dünya ədəbiyyatı | 5718.01 | 2 |
| 3. | Beynəlxalq münasibətlər | 5901.01 | 2 |

**Fəlsəfə doktoru uzrə doktoranturada dissertantlıq yolu ilə təhsil müddəti 4 ildir.**

**Doktorantura və dissertantlıq yolu ilə təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilir.**

— ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
— kadrların şəxsi qeydiyyat vərəqi;
— tərcümeyi-hal;
— iş yerindən xasiyyətnamə;
— 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
— iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
— çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
— ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
— şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Təhsil haqqı müqavilə yolu ilə müəyyən edilir.**

**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küç. 27
**Tel:** (+99412) 492 61 63; 492 74 18 (14)
**Faks:** (+99412) 492 67 01
**e-mail:** www.wu.edu.az


Rəşad Məcid, Yaşar Əliyev və Yusif Rzayev Namiq Əhmədova və Akif Əhmədgilə anaları

**YAQUT xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azər Abdulla, Tofiq Abdin, Akif Miriyev Səyyad Arana anası

**MƏSUMƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Çingiz Əlioğlu, Əlövsət Ağalarov Azərbaycanın Milli Qəhrəmanı, general Rövşən Əkbərova anası

**YAVƏR xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tahir Aydınoğlu, Hafiz Hüseynxanlı qələm dostları Namiq Əhmədova anası

**YAQUT xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yasamal rayonu Polis İdarəsi tərəfindən Azər Balabəy oğlu Mazanova verilmiş şəxsiyyət vəsiqəsi 21.09.2012-ci il tarixdə itdiyi üçün etibarsız sayılır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Ağcabədi rayon şöbəsi tərəfindən Hacıbədəlli kənd sakini Cəlilov Əkbər Hüseyn oğlunun adına 5 avqust 2005-ci il tarixdə verilmiş YN-341A KOD 60804018 seriyalı Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.




**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2425, sifariş:3305
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.